# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 61 (3299) Cümə axşamı / 2-3 iyul 2020-ci il Qiyməti 40 qəpik




## "Qarabağ xalqı" deyə anlayış mövcud deyil

**Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Ermənistan XİN-in yaydığı məlumata münasibət bildirib. XİN-dən hafta.az-a verilən məlumata görə, o bildirib ki, ATƏT-in Minsk Qrupunun həmsədrləri və ATƏT-in Fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin iştirakı ilə Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin 30 iyun tarixində keçirilən videokonfrans formatında görüşü ilə bağlı AR XİN-in rəsmi açıqlaması yayılıb.**

"Qeyd etdiyimiz kimi, görüş zamanı nazir Elmar Məmmədyarov Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən həyata keçirilən qeyri-qanuni fəaliyyəti, o cümlədən həyata keçirilən infrastruktur dəyişiklikləri məsələsini qaldırdı. Nazir, həmçinin məhz Ermənistanın təxribatçı əməllərinin ritorikanın alovlanmasına xidmət etdiyini vurğuladı.

Ermənistan XİN-in görüşlə bağlı yaydığı açıqlama işğalçı ölkənin ənənəvi olaraq sərgilədiyi tamamilə əsassız mövqeyi növbəti dəfə təkrarlayır. Aydındır ki, bölgədəki gərginliyin, ritorikanın, qarşıdurmanın, düşmənçiliyin kökündə Ermənistanın təcavüzkar siyasəti, Azərbaycanın beynəlxalq tanınmış ərazilərini hərbi işğal altında saxlaması və bu ərazilərdəki çoxsaylı yerli azərbaycanlıya qarşı etnik təmizləmə həyata keçirməsi durur. Əhalini sülhə hazırlamaq öhdəliyindən danışan Ermənistan, bu öhdəliyinə əməl edərək işğalçı qüvvələrini Azərbaycanın Dağlıq Qarabağ və ətraf rayonlarından çıxarmalı və məcburi köçkünlərin öz evlərinə geri dönməsinə manеə yaratmamalıdır.

O ki qaldı Ermənistan XİN-in istinad etdiyi "Qarabağ xalqı" ifadəsinə, hamıya, elə Ermənistanın özünə də çox yaxşı bəllidir ki, Qarabağ xalqı deyə anlayış mövcud deyil. Qarabağda yaşayan ermənilər Azərbaycanın bu bölgəsində yaşayan iki icmadan birini təşkil edir. Qarabağın azərbaycanlı icması Ermənistanın təcavüzü nəticəsində evlərindən didərgin düşüb, məcburi köçkünə çevrilib. Münaqişənin həlli üzrə aparılan danışıqların məqsədi də elə bu insanların pozulmuş fundamental hüquq və azadlıqlarının bərpa edilməsidir, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın ərazilərindən çıxarılmasının təmin edilməsidir. Bölgədə davamlı sülh, sabitlik və təhlükəsizliyin təmin olunmasının başqa yolu yoxdur", - deyə XİN rəsmisi vurğulayıb. Xatırladaq ki, Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin ATƏT-in Minsk Qrupunun həmsədrlərinin iştirakı ilə 30 iyun tarixində keçirilən onlayn görüşü ilə bağlı Ermənistan XİN-in yaydığı məlumatda Azərbaycanın "qeyri-konstruktiv bəyanatlarına" istinad edilərək, Qarabağ "xalqının" təhlükəsizliyindən bəhs edilir.

## Yoxlama

■ **Dövlət Gömrük Komitəsinin Qərb Ərazi Baş Gömrük İdarəsinin əməkdaşları xarici valyutanın ölkənin gömrük sərhədindən bəyan etmədən keçirilməsinin qarşısını alıblar.** Komitənin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən hafta.az-a bildirilib ki, idarənin "Qırmızı Körpü" gömrük postunda Gürcüstana gedən "Mercedes-Benz Atego" markalı nəqliyyat vasitəsi saxlanılıb və sürücüsü şifahi sorğu-sual olunub. Bu zaman vətəndaş idarə etdiyi avtomobildə gömrük nəzarətindən gizlədilən və bəyan edilməyən heç hansı predmetin olmadığını bildirib. Yoxlama zamanı nəqliyyat vasitəsinin salonunda köynəyə bükülü halda gömrük nəzarətinə bəyan edilməyən 22400 ABŞ dolları aşkarlanıb. Faktla bağlı araşdırma aparılır.

■ **Dövlət Gömrük Komitəsinin Şimal Ərazi Baş Gömrük İdarəsinin Əməliyyat və təhqiqat şöbəsinə daxil olan məlumat əsasında Rusiya istiqamətindən "Samur" gömrük postunun idxal gömrük nəzarəti xəttinə daxil olan Azərbaycan vətəndaşının idarə etdiyi "DAF" markalı yük nəqliyyat vasitəsinə gömrük baxışı keçirilib.** Komitənin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən hafta.az-a bildirilib ki, yoxlama zamanı, avtomobilin gizlin saxlanc yerlərində gömrük nəzarətindən gizlədilən qutusu və aksesuarları ilə birlikdə 1 ədəd "Huawei 10 Lite 64 GB", 1 ədəd qutu və aksesuarları olmayan "Huawei Mate 30 Pro 256 GB", 1 ədəd " Honor 32 GB" markalı mobil telefon, 5 adda 39 ədəd spirtli içki, 460 ədəd həb, 110 ədəd kapsul, 20 ampul və 16 flakon müxtəlif adda dərman preparatı, şəxsi əşyalarının içərisində isə gömrük nəzarətinə bəyan edilməyən 1 ədəd xəz dərili gödəkcə aşkarlanıb. Faktla bağlı araşdırma aparılır.

## Qarət

■ **Bakıda mənzildən oğurluq olub.** Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən hafta.az-a verilən məlumata görə, Səbail Rayon Polis İdarəsinin 41-ci Polis Bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində iyunun 19-da Badamdar qəsəbəsindəki evlərdən birinin həyətindəki yardımçı təsərrüfatdan 23000 manat dəyərində mebel oğurlamaqda şübhəli bilinən Masallı rayon sakini E.Məmmədov saxlanılıb, daha 1 nəfərin isə şəxsiyyəti müəyyən edilib. Araşdırma aparılır.

## Qəza

■ **Salyan rayonunda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib.** Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən hafta.az-a bildiriblər ki, iyulun 1-də saat 1 radələrində Salyan rayonunun Qırxçıraq kəndi ərazisində Bakı şəhər sakini Ruslan Abdullayev idarə etdiyi "Toyota" markalı avtomobil aşıb. Nəticədə sürücü aldığı xəsarətlərdən hadisə yerində ölüb. Hadisə ilə bağlı araşdırma aparılır.

# Azərbaycanda turizmin bərpasına kömək edə biləcək bütün amillər var



## Müzakirə

***BMT-nin Ümumdünya Turizm Təşkilatının təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə bu təşkilatın Baş katibi Zurab Pololikaşvili arasında videokonfrans keçirilib.***

Zurab Pololikaşvilini salamlayan Prezident İlham Əliyev dedi:

- Hər vaxtınız xeyir, hörmətli Baş katib. Sizi görməyə şadam. Yenidən görüşmək və ümumi işlər barədə danışmaq üçün yaxşı imkan yaranıb. Əlbəttə, turizm pandemiya şəraitində ən çox zərər çəkmiş sahələrdən biridir. Biz bunu Azərbaycanda da, bütün dünyada da müşahidə edirik. Buna görə təbiidir ki, sizin üzərinizə əlavə yük düşüb. Ona görə ki, əvvələn, pandemiya dövründə turist axını təbii olaraq çox azalıb, lakin postpandemiya dövründə də bu sahənin bərpa olunması, əlbəttə, müəyyən məhdudiyyətlərlə bağlı olacaq.

Bildiyiniz kimi, son vaxtlar Azərbaycana gələnlərin sayının xeyli artması müşahidə olunurdu. Keçən il rekord göstərici qeydə alınıb - 3 milyondan çox əcnəbi vətəndaş Azərbaycana səfər edib. Faiz nisbətində desək, turist axını təqribən 15 faiz artıb. Son 4-5 ildə orta illik artım göstəricisinin 10-24 faiz həddində olmasını nəzərə alsaq, deyə bilərik ki, bu sahə çox geniş vüsət alıb. Biz şadıq ki, özəl sektor bu sahəyə fəal sərmayə qoyur, dövlət də dəstək göstərir. Pandemiya dövründə biz bu sahədə işləyən insanlara maddi dəstək göstərmişik, çünki onlar praktiki olaraq işsiz qalıblar. Sahə bərpa olunmağa başlayana qədər bu dəstək göstəriləcək. Odur ki, mühüm məsələlər barədə danışmaq təşəbbüsünə görə sizə təşəkkür edirəm. Sizi yenidən görməyimə şadam.

Zurab Pololikaşvili: Cənab Prezident, ilk növbədə, bu görüş üçün vaxt ayırdığınıza, bir daha ünsiyyətdə olmaq, söhbət etmək imkanına görə Sizə təşəkkür edirəm. Düz bir il bundan əvvəl, iyun ayında Bakıda olmuşuq, bizim İcraiyyə Şurasının iclası keçirilib. İcraiyyə Şurasının iclası bizim təşkilat üçün ən mühüm hadisələrdən biridir. Səmimi qonaqpərvərlik üçün bir daha təşəkkürümü bildirmək istəyirəm. Bütün qonaqlar çox razı qaldı, hər şey yaxşı oldu. Siz düzgün qeyd etdiniz, bu pandemiya bütün dünyanı cənginə alıb, 2-3 aydır ki, bütün dünya bağlıdır, 150-yə yaxın ölkənin sərhədləri hələ də açılmayıb. Bəlkə də ən çox itki, ən böyük böhran ilə üzləşən turizm sektoru olub, nəinki Azərbaycanda, bütün dünyada tarixdə belə hal olmamışdı. İndi biz heç vaxt görmədiyimiz böhran içindəyik.

ardı səh. 2



# İstehlaka yararsız 7 tona yaxın ət aşkar edilib

**Ölkəmizdə dövlət strukturlarının əhalinin sağlamlığının qorunması, digər sahələr üzrə xidməti fəaliyyətin təşkili istiqamətində səfərbər olunduğu vaxtda mövcud vəziyyətdən öz maraqları naminə istifadə edərək, vətəndaşların və dövlətin qanunla qorunan mənafelərinə zərər vuran əməllərə qarşı prokurorluq orqanları tərəfindən mübarizə tədbirləri davam etdirilir.** Baş Prokurorluğun mətbuat xidmətindən hafta.az-a verilən məlumata görə, Ağcabədi rayonu, Xocavənd kəndində yerləşən "AGRO-MEAT" MMC-yə məxsus kəsimxanada istifadəyə yararsız ət məhsullarının kəsimi və satışının həyata keçirməsi barədə daxil olmuş məlumatlar əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri həyata keçirilib. Keçirilmiş əməliyyat tədbirləri nəticəsində "AGRO-MEAT" MMC-nin səlahiyyətli nümayəndəsi kimi özünü təqdim edən Ələkbərov Namiq Oktay oğlu, həmin müəssisəni icarəyə götürən Vəliyev Ehtiram İldırım oğlu, İsmayılov Cavid Qubad oğlu və digərlərinin qabaqcadan əlbir olaraq "AGRO-MEAT" MMC-yə məxsus kəsimxanada insan həyatı və sağlamlığı üçün zərərli olan ət məhsullarının kəsimi və satışını həyata keçirmələrinə əsaslı şübhələr müəyyən edilib.

ardı səh. 7

GÜNDƏM

## ABŞ-da yoluxma hallarının sayı gündə 100 minə çata bilər



**ABŞ-da yoluxucu xəstəliklər üzrə aparıcı ekspert olan doktor Entoni Fauçi çərşənbə axşamı Senat komitəsində çıxışında bəyan edib ki, Birləşmiş Ştatlarda koronavirusa yoluxanların sayı yekun nəticədə gündə 100 minə çata bilər.**

ABŞ Senatının səhiyyə, təhsil, əmək və pensiyalar üzrə komitəsində dinləmələrdə çıxış edən doktor Fauçi Ağ evin koronavirusla mübarizədə hədəf qrupunun digər üzvləri ilə birgə bildirib ki, Birləşmiş Ştatlar hazırda pandemiya üzərindəki vəziyyətə nəzarət etmir.

Doktor Fauçi son günlər ərzində qeydə alınan yoluxma hallarının sayının iki dəfə arta biləcəyini vurğulayıb. O deyib: "İndi bizdə hər gün 40 mindən artıq yoluxma halı qeydə alınır. Bu rəqəm gündəlik 100 minədək qalxarsa, mən təəccüblənməzəm. Mən buna görə olduqca narahatam".

Fauçi, həmçinin bildirib ki, koronavirus əleyhinə təsirli vaksin yaxın gələcəkdə işlənib hazırlanacaq. Ekspert bəyan edib ki, o, müəssisələrin və ictimai təşkilatların fəaliyyətinin bərpasına çox tez icazə verilən Texas, Florida və Arizona ştatlarında yoluxma hallarının sayının sürətlə artmasına görə çox narahatdır.

İyunun 30-na olan məlumata görə, ABŞ-da 2,7 milyon yoluxma halı qeydə alınıb, 130 min nəfər bu xəstəliyin qurbanına çevrilib.

## Günün fotosu...



Belə də, dərs olar...

"HƏFTƏ İÇİ"ndən



### Cinsə görə ayrı-seçkilik səbəbindən 140 milyon qız "itirilib"

Pandemiya hər gün daha çox qızı müxtəlif risklərlə üz-üzə buraxır

bax səh. 7



### Karantin müddəti uzanarsa, DİM adekvat addım atmalıdır

Təklif edirəm ki, qəbul və buraxılış imtahanları birləşdirilməklə vahid bir imtahan keçirilsin

bax səh. 6

# Media təmsilçiləri Prezidentin sərəncamından danışdılar

***Ölkə başçısı İlham Əliyev iyunun 30-da sərəncam imzaladı. Sərəncama əsasən Azərbaycan mətbuatının 145 illik yubileyi təmtəraqla qeyd olunacaq. Özü də ölkə miqyasında... Sərəncamda qeyd olunur ki, Azərbaycan Respublikasında milli mətbuat ənənələrinin qorunması və təbliğ edilməsi məqsədilə, kütləvi informasiya vasitələrinin ölkəmizin ictimai-siyasi həyatındakı yerini və müasir cəmiyyət quruculuğu prosesində rolunu nəzərə alaraq ölkə başçısı belə bir sərəncama imza atıb.***

Eyni zamanda, vurğulanır ki, 145 il əvvəl - 1875-ci il iyulun 22-də görkəmli ziyalı və maarifçi-publisist Həsən bəy Zərdabi tərəfindən Azərbaycan dilində nəşr olunmağa başlamış “Əkinçi” qəzeti milli mətbuatımızın ilk nümunəsi və həmin dövr Azərbaycanın ictimai-siyasi həyatının mühüm hadisəsi kimi tarixə düşüb. Sonrakı illərdə çoxsaylı nəşrlərlə zənginləşən milli mətbuatımız Azərbaycan ədəbi dilinin və maarifçilik hərəkatının inkişafına əhəmiyyətli töhfələr vermiş, milli özünüdərk və istiqlal məfkurəsinin formalaşmasında, qabaqcıl ideyaların təbliğində böyük xidmətlər göstərib.

Media ictimaiyyətinin təmsilçiləri ölkə başçısının müvafiq sərəncamı ilə bağlı fikirlərini hafta.az-a bölüşüblər.

**■ Sevinc Seyidova - “Həftə içi” qəzeti və hafta.az saytının baş redaktoru:**

- Prezident İlham Əliyev tərəfindən mətbuatın 145 illik yubileyi ilə bağlı tədbirlər planının



hazırlanmasına dair müvafiq sərəncam dövlətin media sahəsinə diqqət və qayğısının növbəti təzahürüdür. Hazırda ölkəmizdə koronavirus pandemiyasının qarşısının alınması üçün ciddi karantin rejimi tətbiq edilir. Belə bir şəraitdə dövlət başçısının imzaladığı sərəncamda 145 illik yubiley tədbirlərinin geniş qeyd edilməsi ilə bağlı göstərişləri pandemiya dövründə həkimlərimiz və polislərimizlə çiyin-çiyinə çalışan media işçilərini də ruhlandırır.

“Müvafiq sərəncam həm də mediamızın gələcək inkişafı ilə bağlı yol xəritəsidir”, - desək yanılmarıq. Prezident tərəfindən istər ənənəvi, istərsə də onlayn medianın müasir dövrün tələblərinə uyğun fəaliyyət göstərməsinin vacibliyi vurğulanır. Media sahəsində aparılan islahatların mövcud çatışmazlıqları mərhələli şəkildə aradan qaldıracağına inam yaradır. Hazırda Azərbaycan mətbuatı özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu istiqamətdə dövlətin də dəstəyini hər zaman hiss edib. Mən də ”Həftə içi” qəzeti və hafta.az saytının kollektivini, həmçinin media sahəsində çalışan bütün



həmkarlarımızı 145 illik yubiley münasibətilə təbrik edirəm.

**■ Hikmət Babaoğlu - “Yeni Azərbaycan” qəzetinin baş redaktoru, millət vəkili:**

- Hər bir ölkənin milli mətbuatı onun intellektual lokomativ institutlarından biridir. Əgər bu gün Azərbaycanın milli mətbuatı hələ də öz funksiyasını yerinə yetirə bilirsə, hələ də ölkəmizin ictimai-siyasi proseslərində, milli şüurun formalaşmasında, milli-mənəvi dəyərlərin qorunmasında funksional bir institut kimi üzərinə düşəni yerinə yetirirsə, bunun üçün Azərbaycan prezidentinin diqqətinə və qayğısına borcludur. Bütün dünyada milli mətbuat, xüsusən çap mediası bəlkə də yarandığı tarixdən bu günə qədər ən zor, çətin dönəmlərindən birini keçirir. Çoxsaylı alternativ, elektron resursları çap mediasını daim sıxışdırmaqdadır.

Ancaq buna baxmayaraq, Azərbaycanda çap mediası inkişaf edir, fəaliyyət göstərir. Bu gün tarixdə heç olmadığı qədər dövlət qayğısı ilə əhatə olunub. Azərbaycan Prezidentinin qayğısı ilə əhatələnib. Ona görə də düşünürəm ki, bu, Azərbaycan prezidentinin milli mətbuatımıza olan diqqətinin göstəricisidir. Düz 145 il bundan əvvəl Azərbaycanın ilk qəzeti çap olundu.

Bu tarix, əslində, Çar Rusiyası tərkibində yaşayan türk və müsəlman xalqlarının hamısının birlikdə qürur duyacağı tarixdir. “Əkinçi” qəzeti təkcə Azərbaycan milli Mətbuatının deyil, eyni zamanda, o dövrdə identfikasiyanın din və ümmətçilik üzərindən təyin edildiyi bir vaxtda bu sosial bənzərliyə uyğun olan bütün xalqlar üçün milli mətbuat rolunu oynamağı bacardı. O vaxtdan bu vaxta qədər Azərbaycan mətbuatı ilk növbədə özünün maarifləndirmə, təşkilatlandırma, təşviqetmə, mənəvi dəyərlərin qorunması, milli özünüdərkin daha da dərinləşməsi kimi funksiyalarını uğurla yerinə yetirir. Əlbəttə ki, artıq Azərbaycanda milli mətbuatımızın yubileylərinin keçirilməsi bir ənənə halını alıb.

Bu günlərdə də Azərbaycan Prezidenti milli mətbuatımızın yaranmasının 145 illiyi münasibətilə tədbirlərin keçirilməsi ilə bağlı sərəncam imzaladı. Düşünürəm ki, bu bir daha Azərbaycan milli mətbuatına göstərilən diqqət və qayğı kimi qeyd edilməlidir. Eyni zamanda, bu gün Azərbaycanda fəaliyyət göstərən jurnalistlərin və media nümayəndələrinin fəaliyyətinə verilən qiymət kimi dəyərləndirilməlidir.

Bu həm də media mənsubları üçün bir öhdəçilik yaradır. Biz bundan sonra milli mətbuatımızın fəaliyyətini daha çox milli maraqlar ətrafında koordinasiya olunmasına nail olmalıyıq. Öz üzərimizə düşən vəzifə və funksiyanı layiqincə yerinə yetirməliyik.

**■ Aydın Quliyev - “Bakı-Xəbər” qəzetinin baş redaktoru:**

- Prezidentin 145 illik sərəncamı çoxdan ənənə şəkli almış dövlət siyasətinin növbəti davamıdır. Bu fakt Azərbaycanda mediaya dövlət dəstəyinin tərkib hissəsidir. 145 illik yubiley tədbirlərinin praktik əhəmiyyətli nəticələr verəcəyi şübhəsizdir. Mətbuatın və ümumən medianın indiki durumu təhlil ediləcək, perspektivlər müəyyən olunacaq, müsbət və mənfi trendləri görəcəyik.



Belədə jurnalistikanın və mətbuatın nüfuzunun daha da bərkiməsi üçün yeni imkanlar açılacaq. Əvəzsiz yeri olan çap mediasının mənafeləri üçün bu sərəncamın xüsusi təsirləri və əhəmiyyəti var.

**■ Akif Aşırlı - “Şərq” qəzetinin baş redaktoru:**

- Ölkə başçısı Azərbaycan mətbuatının 145 illiyi ilə bağlı sərəncam imzaladı. Bu onun göstəricisidir ki, çətin, ağır bir dönəmdə dövlət başçısı mətbuatın cəmiyyətdə rolunu çox yüksək qiymətləndirir. Həmişə Azərbaycan mətbuatını, jurnalistləri diqqətdə saxlayır. Belə bir ağır, çətin zamanda, bu cür sərəncamın imzalanması, 145 illiyin ölkə miqyasında keçirilməsini, bu barədə müvafiq tapşırıqların verilməsini çox yüksək qiymətləndirirəm. Düşünürəm ki, bu Azərbaycan jurnalistlərinə verilən ən böyük töhfədir. Zaman-zaman, həmişə cənab prezidentin bizə diqqəti, qayığısı olub. Problemlərinin həlli istiqamətində dövlətin



bütün imkanlarından, gücündən istifadə edilib, şərait yaradılıb. Biz jurnalistlərə qayğı və diqqəti üçün cənab prezidentə təşəkkür edirəm.

**■ Bəhruz Quliyev - “Səs” qəzetinin baş redaktoru:**

- Cənab prezident mətbuatın hamisidir. Prezident jurnalistlərin, medianın dostudur. Bunun da kökü gedib Ulu Öndərimizə çıxır. Ulu öndərimiz də hər zaman mətbuatın problemlərini diqqətdə saxlayırdı.

Cənab Prezident də Ümummilli Liderimizin irsinə həmişə sədaqətlə yanaşıb. Ulu öndər mətbuata açıq lider idi. Mətbuatın, jurnalistlərin dostu idi. Ulu öndərimiz ən maraqlı, vacib informasiyaları jurnalistlərdən alırdı. Bu gün cənab Prezident də özünü mətbuatımızın dostu sayır və mətbuat da dövlət başçısına jurnalistlərin dostu mükafatını verib. Bu, qarşılıqlı dostluq münasibətləridir. Müxtəlif dövrlərdə də özünü göstərib. Azərbaycan mətbuatının 145 illik yolu, yubileyləri daima müstəqil Azərbaycanda izlənilib. Onun araşdırılması, gələcək nəsillərə ötürülməsi üçün xeyli işlər görülüb. Hesab edin ki, milli mətbuatımızın səhifələrimizdə 145 illik Azərbaycan tarixi yatır.

Keçmişimizi, hətta ən qədim tariximizi belə bu gün mətbuat öz səhifələrinə gətirir. Gələcək nəsillərə ötürür. Bunun özü bir tarix rolunu oynayır. Cənab prezident də bunu çox gözəl bilir. Mətbuat sahəsində çalışanların xidmətini ən yaxşı bilən və dəyərləndirən məhz cənab Prezidentin özüdür. Milli mətbuatımızın 125, 130, 135, 140, 145 illikləri ölkə miqyasında qeyd olundu.

Jurnalistə dövlət mükafatlarının verilməsi mətbuat nümayəndəsinə sanki dünyanın verilməsidir. Jurnalist qələm sahibidir. O, öz gözünün nurunu qoyur. Öz zəkasını, bilik və bacarığını bir jurnalist araşdırmasına həsr edir. Onun dövlət başçısı tərəfindən dəyərləndirilməsi deyərdim ki, jurnalist üçün ən böyük hədiyyədir, nemətdir. Bu gün biz onun gözəlliyini yaşayırıq.



Bu gün Azərbaycan prezidenti cənab İlham Əliyevin bugünkü sərəncamı ilə Azərbaycanın mətbuat sahəsində əməyi keçən insanların zəhmətinin dəyərləndirilməsi, o cümlədən milli mətbuatımızda günümüzün ictimai-siyasi həyatında dövlət mükafatları ilə mükafatlandırılması gələcəyə doğru atılmış bir addımdır. Gələcək nəsillərə bir töhfədir. Mən deyərdim ki, eyni zamanda, bu günkü jurnalistikaya stimuldur ki, jurnalistikamız daha da sağlamlaşsın. Azərbaycanın dünyada tanınmasında, öz yerini müəyyənləşdirməsində milli mətbuatımızın özünəməxsus yeri və rolu olmalıdır. Düşünürəm ki, Azərbaycan mətbuatı cənab Prezidentin apardığı siyasətə öz dəstəyini göstərməlidir. Eyni zamanda, Azərbaycanın real görüntülərini yaratmalıdır. Belə düşünürəm ki, son dövrlərdə Azərbaycan mətbuatı həqiqətən də ölkəmizin reallıqlarını dünya ictimaiyyətinə çatdıra bilir. Məhz bu sərəncamda onların hamısının ümumiləşdirilmiş bir formasıdır ki, cənab Prezident onu ortaya qoyub. Ölkə jurnalistikasının inkişafında xidməti olanları mükafatlandırmaqla daima bizləri sevindirib. Hesab edirəm ki, bu, hər bir jurnalistin yalnız sevincinə səbəb ola bilər. Hansı siyasi mövqedə, əqidədə olursan ol, zəhmətin dövlət başçısı tərəfindən qiymətləndirilirsə, bundan böyük xoşbəxtlik ola bilməz.

✍ *Tural*

# Ermənistanın düşdüyü bu fəlakət növbəti illərdə daha da dərinləşəcək

**“Azərbaycan bu gün Qoşulmama Hərəkatı kimi dünyanın 1/3-ni əhatə edən nəhəng bir quruma rəhbərlik edən, həmçinin, BMT kimi nüfuzlu bir qurumun Təhlükəsizlik Şurasına sədrlik edən, beynəlxalq təşkilatlarda haqqı, sözü tanınan, dünyanın enerji xəritəsini dəyişən, onun enerji təhlükəsizliyində mühüm rol oynayan bir dövlətdir.**



Ermənistan vassal, heç bir daxili və xarici siyasəti olmayan, asılı, terrorçu, işğalçı siyasətini dəyişməyərək öz ölkəsini uçuruma aparan bir dövlətdir”.

**■ Bunu hafta.az-a açıqlamasında açıqlamasında Beynəlxalq Münasibətlərin Araşdırılması Mərkəzinin rəhbəri, siyasi elmlər üzrə fəlsəfə doktoru Rufiz Qonaqov deyib.** O bildirib ki, Azərbaycan dövləti və hökuməti ölkədə pandemiya ilə əlaqədar sosial durumun yaxşılaşdırılması, iqtisadiyyatın, biznesin dayanıqlılığını təmin etmək üçün hələ pandemiyanın ilk dövrlərindən bu istiqamətdə fəaliyyətə başladı:

”Sosial yönümlü bir sıra addımlar atıldı, xüsusilə də, bu, insanların əmək müqavilələrində öz əksini tapdı. Pensiyalar, müavinətlər vaxtı-vaxtında verilməklə yanaşı pandemiya ilə mübarizə sahəsində karantin rejiminin elan olunması ilə əlaqədar işsiz qalmış vətəndaşlara əlavə müavinətlərin verilməsi həyata keçirildi. Qısa bir zamanda modul tipli xəstəxanalar istifadə verildi. Bu xəstəxanaların hər birinin açılışında Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva iştirak etdi.

Təkcə Bakı şəhərində deyi, rayonlarımızda da bu kimi xəstəxanaların tikintisi davam etdirilir. Həmçinin sahibkarlara və biznes adamlarına, bank sektoruna, insanların kredit ödənişləri ilə bağlı etdikləri müraciətlərə uyğun olaraq bir sıra güzəştlər edildi. Bütün bunların fonunda Azərbaycan dövləti və Azərbaycan Respublikası Prezidenti bu dövrdə vətəndaşların yanında olub və bundan sonra da bu proses davam etdiriləcək”.

Beynəlxalq Münasibətlərin Araşdırılması Mərkəzinin rəhbəri vurğulayıb ki, Azərbaycanın bugünkü imkanları, ölkə iqtisadiyyatının dayanıqlılığı və pandemiya dövründə də inkişafı ölkəmizin bu istiqamətdə resurslarının kifayət qədər olduğundan xəbər verir: ”Prezident İlham Əliyevin də vurğuladığı kimi Azərbaycan dövləti bütün çətinliklərə baxmayaraq vətəndaşlarının sosial-iqtisadi problemlərinin həllində daima yanında olacaq. Ölkəmizdə pandemiya ilə mübarizə yüksək səviyyədə olmasına baxmayaraq qonşu Ermənistanda isə vəziyyət olduqca acınacaqlıdır. Hazırda hakim ailə müxtəlif ittihamlarla gündəmdədir.

Bu da onu deməyə imkan verir ki, Ermənistan təcavüzkar və işğalçı siyasətini dəyişməsə bu ölkədə hər hansı bir inkişafdan, sosial-iqtisadi çətinliyin həllindən danışmaq olmaz. Ermənistandakı vəziyyət o qədər acınacaqlıdır ki, hətta hakimiyyət strukturları ilə xalq arasında artıq uçurum yaranmaqdadır. Paşinyan verdiyi bütün vədləri unudaraq bu gün imitasiya, korrupsiya ilə varlanmaq həvəsi ilə məşğuldur. O öz opponentlərini, jurnalistləri, siyasətçiləri, hətta Parlamentdə olan millət vəkillərini belə represiyaya məruz qoymaqla diktatura rejimi yaratmağa və qorxu ilə dövləti idarə etməyə çalışır. Həmçinin, Paşinyan sərsəm bəyanatları, tez-tez Azərbaycanın işğal olunmuş ərazilərinə səfər etməsi, populist çıxışlar edərək öz ölkəsi üçün bundan artıq heç nə edə bilmədiyini göstərdi”.

Rufiz Qonaqov qeyd edib ki, bu gün Azərbaycanla Ermənistanı heç cür müqayisə etmək olmaz: ”Azərbaycan bu gün Qoşulmama Hərəkatı kimi dünyanın 3-də 1-ni əhatə edən nəhəng bir quruma rəhbərlik edən, həmçinin, BMT kimi nüfuzlu bir qurumun Təhlükəsizlik Şurasına sədrlik edən, beynəlxalq təşkilatlarda haqqı, sözü tanınan, dünyanın enerji xəritəsini dəyişən, onun enerji təhlükəsizliyində mühüm rol oynayan bir dövlətdir. Azərbaycan ordusu dünyanın ən güclü 50 ordusu sırasındadır.

Bu gün Azərbaycan dünyada iqtisadi cəhətdən inkişaf etməkdə olan ölkələr arasındadır. Azərbaycan bu gün şərqlə qərbi, şimalla cənubu birləşdirən böyük nəqliyyat dəhlizini təşkil edən ölkədir. Bu sadalananların siyahısını artıra da bilərik. Lakin, Azərbaycana qarşı işğalçı siyasətini davam etdirən Ermənistan vassal, heç bir daxili və xarici siyasəti olmayan, asılı, terrorçu, işğalçı siyasətini dəyişməyərək öz ölkəsini uçuruma aparan bir dövlətdir. Ermənistanın düşdüyü bu fəlakət növbəti illərdə daha da dərinləşəcək”.

✍ *Tural*

# Bütün vətəndaşlar sosial məsuliyyətlərini dərk etməlidir



**Hazırda ən mühüm məsələ ölkədə vətəndaşların karantin qaydalarına əməl etmələridir. İctimai nəqliyyat və digər yerlərdə maskadan istifadə etməli, sosial məsafə saxlanılmalıdır.** Bəzən isə bu qaydaları pozan şəxslər də olur. Bu isə sosial məsuliyyətsizlikdir. Bəs insanların sosial məsuliyyəti necə tənzimlənməlidir?

**■ Hafta.az-a danışan sosioloq Əhməd Qəşəmoğlu hesab edir ki, ən başlıcası əhalini maarifləndirmək lazımdır:** ”Amma maarifləndirməyi 40 il bundan qabakı metodlarla həyata keçirmək olmaz. Biz bu dəqiqə bütün qeyri-hökumət təşkilatlarını, üzvlərini cəlb edə bilərik, küçədə insanlara yaxınlaşar. Mən özüm bunu edirəm, soruşuram ki, nəyə etiraz edirsən. Bu, bir siyasət, iqtisadi aksiya deyil. Sənə deyirlər ki, sən xəstələnməklə, yüzlərlə adamı xəstələndirəcəksən, ölkəyə də zərbə vuracaqsan. Sən nəyə etiraz edirsən ki, maska taxmırsan, sosial məsafə saxlamırsan? Adam sanki nəsə qeyri-adi şey eşidir, üzümə baxır. Məsələn, mən təklif etdim ki, elə adamlara bir səhifəlik müraciət təqdim olunsun, oxusun, dəhşətləri hiss etsin. Tək bu, deyil. Mənim təqdim etdiyim layihədə 14-ə qədər tədbir var. Xüsusilə televiziyalarımız bu sahədə güclü işləməlidir. İkinci dünya müharibəsində bütün televiziya, radio, qəzet hamısı müharibə ilə bağlı səfərbər olunmuşdu. İndi bu koronavirus müharibədən betər bir şeydir. Amma bizim televiziyaları açırsan səviyyəsiz, primitiv, formal verilişlərdir. Sosial şəbəkələrdə, saytlarda epizodik söhbətlərdir. Yəni bu sahədə çox ciddi, elmi əsaslarla hazırlanmış fəaliyyət proqramı olmalıdır. Mən təklif etmişəm ki, Operativ Qərargahın nəzdində ictimai rəyə nəzarət qrupu olsun. Əhalini hazırlamadan biz heç nə edə bilməyəcəyik. Əhali buna müqavimət göstərir”.

✍ *Ruzbeh*

# Ermənistan müxalifəti Paşinyana cinayət işinin açılmasını tələb edir

**Ermənistanın üç müxalifət partiyası - “Çiçəklənən Ermənistan”, “Vətən” və “Daşnakstyun” baş prokurorluğa qanunverici və icraedici orqanların konstitusiya quruluşunu devirmək, hakimiyyəti mənimsəmək və vəzifə səlahiyyətlərini aşmaqla bağlı cinayət işinin açılmasına dair müraciət edib.**

Hafta.az-ın məlumatına görə, ”Vətən” partiyasının üzvü Arsen Babayan bildirib ki, iki ildir hakimiyyət Konstitusiya və bütün qanunları pozur. Parlament Konstitusiya düzəlişlərini qəbul etmək səlahiyyətinə malik deyil: ”Baş Prokurorluqdan tələb edirik: Paşinyan rejiminə qarşı cinayət işi açılsın”. ”Çiçəklənən Ermənistan” fraksiyasının üzvü Naira Zoqrabyan da hakimyyətə qarşı iddiaların əsaslı olduğunu deyib. ”Vesti.FM” radiosunun yazarı Armen Qasparyanın sözlərinə görə, Paşinyan Ermənistanda demokratik hakimiyyətin qurulduğu ilə bağlı iddialarına baxmayaraq bu müraciətin cinayət işinə çevrilməsinə imkan verməyəcək. Paşinyan hakimiyyətin onun üçün nə qədər dəyərli olduğunu artıq bu iki ildə ”fəaliyyəti” ilə göstərib: ”İki il əvvəl hakimiyyət dəyişdikdən dərhal sonra o xalqın küçəyə çıxaraq istədiyini tələb etməsinin qanunauyğun olduğunu bəyan etsə də, 2020-ci ildə bu cür addımların tamamilə qanunsuz və konstitusiyaya zidd olduğunu bəyan edir. Həm bu, həm də əvvəlki sözlər eyni adamın dilindən səsləndirilib. Bu səbəbdən müxalifətin müraciəti ilə bağlı da Paşinyanın eyni mövqeni sərgiləyəcəyini düşünürəm”.

✍ *Azad*

# Bakıdakı postlar yığışdırıldı

**Ölkəmizdə tətbiq edilmiş xüsusi karantin rejimi ilə əlaqədar Bakı şəhərinin giriş və çıxışları istisna olmaqla küçə və prospektlərdə quraşdırılmış xüsusi polis postları iyul ayının 2-dən ləğv ediləcək.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən hafta.az-a verilən məlumata görə, buna səbəb şəhərdaxili yollarda avtonəqliyyatın hərəkətinin intensivliyini təmin etmək, sərtləşdirilmiş xüsusi karantin rejiminə nəzarətə daha çox əməkdaşın cəlb edilməsidir.

”Bundan sonra şəhərdəki bütün qapalı məkanlarda vətəndaşlarımızın karantin rejimindən irəli gələn tələblərə, xüsusilə tibbi maskadan istifadə və sosial məsafənin gözlənilməsinə mütləq qaydada riayət etmələrinə nəzarət daha da gücləndiriləcək.

Küçə və prospektlərdə, eləcə də şəhərdaxili məhəllələrdə piyada patrul naryadlarının sayı artırılacaq, nəqliyyat vasitələrinin hərəkətinə müvafiq icazənin olub-olmaması isə videomüşahidə kameraları ilə müəyyən ediləcək. Həyata keçirilən bütün tədbirlər əhalinin təhlükəsizliyinin təmin edilməsi və onların sağlamlığının qorunmasına xidmət edir. Ona görə də vətəndaşlarımızdan xüsusi karantin rejimindən irəli gələn tələblərə mütləq riayət etmələri tələb olunur” - deyə məlumatda qeyd olunur.

✍ *Hafta.az*

# "İşğal edilmiş ərazilərimizdə yaranmış vəziyyəti nəzarətdə saxlaya bilmirik"

***Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə iuynun 30-da KAİCİİD Beynəlxalq Dialoq Mərkəzinin təşkil etdiyi «Zəifləri qorumaq: həmrəyliyə və fəaliyyətə dinlərarası çağrı» mövzusunda vebinar iclasında iştirak edib.***



QMİ-nin Mətbuat Xidmətindən hafta.az-a verilən məlumata görə, Dr. Məhəmməd Əbu-Nimerin moderatorluğu ilə keçən tədbirin gedişində bir sıra önəmli məsələlər, o cümlədən pandemiya dövründə yaranmış spesifik çətinliklərin cəmiyyətin ən həssas təbəqələrinin həyatında əks olunması və bu çətinliklərin dəf olunmasında dini icmaların görə biləcəyi işlər müzakirə olunub. İngilis kilsəsinin Dinlərarası məsələlər üzrə məsləhətçisi Riçard Sudvort, Amerika Yəhudi Komitəsinin Dinlərarası məsələlər üzrə beynəlxalq direktoru Baş Ravvin David Rosen, Xristian-Müsəlman dialoqu üzrə Milli Komitənin baş katibi dr. Mohammad Sammak, Shanti Ashram təşkilatının direktoru Kezevino Aram və başqaları vebinarda çıxış ediblər. Bildirilib ki, dünya üçün mürəkkəb dövr kimi xarakterizə olunan hazırkı dönəmdə risk qrupuna daxil olan, ən çox yardıma ehtiyacı olan təbəqələrin pandemiyanın sosial, iqtisadi təsirlərindən qorunması yönündə real işlər görülməlidir və bu baxımdan, dünyanın müxtəlif ölkələrində müxtəlif dini icmaların təcrübəsindən yararlanmaq zəruridir. Vebinarda təhsil sahəsində yaşanan çətinliklər, dünyanın heç də bütün məntəqələrində texniki vasitələrdən istifadə edərək distant təhsilin əlçatan olmaması, işsizliyin artması səbəbindən yoxsulluğun artması, turizm imkanlarının məhdudlaşmasının iqtisadi fəsadları və s. bu kimi məqamlar gündəmdə olub. Dünyanın nüfuzlu beynəlxalq hökumətlərarası təşkilatlarından olan KAİCİİD-in Direktorlar Şurasın üzvü Şeyxülislam Allahşükür Paşazadə videoiclasda çıxış edərək bildirib ki, Azərbaycan dövləti pandemiyanın ilk günlərindən ölkə daxilində cəmiyyətin ən müxtəlif təbəqələrinin, o cümlədən, daha həssas cəmiyyət üzvlərinin ehtiyaclarını qarşılamaq üçün mümkün olan bütün tədbirləri həyata keçirir. Nazirlər Kabineti yanında Operativ Qərargah bu işləri yüksək səviyyədə dövlət nəzarəti altında reallaşdırır, lazımi addımları ardıcıl və situasiyaya uyğun tənzimləyir. Bu dövr ərzində dini mərkəz - Qafqaz Müsəlmanları İdarəsi ölkəmizdəki digər dini konfessiyalarla birlikdə COVİD-19 bəlasına qarşı mübarizənin səmərəliliyini artıran bütün lazımi tədbirləri həyata keçirməkdədir. QMİ və digər dini icmalar Operativ Qərargahla yaxından, fəal əməkdaşlıq edərək dini ayin və ibadətlərə dair bütün təlimatları koordinasiyalı şəraitdə ümumi işin mənafeyinə uyğun tərzdə tənzimləyir.

Şeyxülislam A. Paşazadə dövlət-din münasibətlərinin yüksək səviyyəsinin göstəricisi olan bu məqamı bütün dünya üçün örnək nümunə kimi dəyərləndirib. "Yalnız Azərbaycanın Ermənistan işğalı altında olan 20 faiz ərazilərində pandemiya səbəbindən yaranmış vəziyyəti nəzarətdə saxlaya bilmirik və bu xəstəliyin yayılmasına səbəb olur", - deyə QMİ sədri əlavə edib.

A. Paşazadə Azərbaycan dövlətinin beynəlxalq müstəvidə insan həmrəyliyi nümayiş etdirərək 30-dan artıq dövlətə humanitar yardım göstərdiyini, bu yöndə işlərin davam etdirildiyini bildirib. QMİ sədri Azərbaycan Prezidentinin hər zaman olduğu kimi qlobal təşəbbüslərini davam etdirərək pandemiya dövrünün əvvəlindən bir sıra platformalarda beynəlxalq əməkdaşlıq nümunəsi göstərdiyini, bu yaxınlarda isə BMT Baş Assambleyasının COVİD-19 problemi ilə bağlı xüsusi iclasının çağırılması barədə təşəbbüs irəli sürdüyünü diqqətə çatdırdı. Ermənistandan başqa bütün dövlətlərin razılıq verdiyi bu təşəbbüs, heç şübhəsiz ki, dünya miqyasında pandemiyanın və onun fəsadlarının aradan qaldırılması yolunda mühüm və əhəmiyyətli addım olacaq.

QMİ sədri rəhbərlik etdiyi Beynəlxalq Bakı Dinlər və Sivilizasiyalar arası Əməkdaşlıq Mərkəzi, MDB Müsəlmanları Məşvərət Şurası xətti ilə keçirdiyi onlayn iclaslar barədə, habelə iyul ayında Qafqaz Xalqları Ali dini Şurasının üzvləri ilə bu mövzuda baş tutacaq videokonfrans barədə məlumat verib. QMİ sədri pandemiya dövründə Yer üzündə münaqişələrin dayandırılmasını, qarşıdurma və nifrət çağırışlarının qarşısının alınmasının, humanitar yardımlaşma əvəzində siyasi məqsədlərlə sanksiya tətbiqinin aradan qaldırılmasının xüsusən zəruri olduğunu vurğulayıb.

***Azad***

# Ölkəmizin bu təşəbbüsü dünya dövlətləri tərəfindən yüksək qiymətləndirilir

**"Azərbaycan Prezidenti İlham Əliyevin pandemiyaya qarşı mübarizə çərçivəsində tədbirlərin görülməsi məqsədilə hazırda rəhbərlik etdiyi Qoşulmama Hərəkatı ölkələri adından BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifi ilə BMT-nin Baş katibi Antonio Quterreşə müraciət etməsi beynəlxalq aləmdə olduqca yüksək qiymətləndirilən bir təşəbbüsə çevirildi".**

■ Bunu hafta.az-a açıqlamasında millət vəkili Hikmət Babaoğlu deyib. Millət vəkilinin sözlərinə görə, təsadüfi deyil ki, artıq BMT-nin 130-dək üzv dövləti tərəfindən Qoşulmama Hərəkatının sədri statusunda Prezident İlham Əliyevin Baş Assambleyanın xüsusi sessiyasının keçirilməsi barədə təşəbbüsünü dəstəklənib. Bu, hər şeydən əvvəl Azərbaycanın beynəlxalq münasibətlər sistemində oynadığı rol və Prezident İlham Əliyevin lider kimi şəxsi nüfuzu ilə əlaqələndirilməlidir: "Hazırda Azərbaycan iki beynəlxalq təşkilata rəhbərlik edir. Bunlardan biri Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, digəri isə Qoşulmama Hərəkatıdır. Koronavirus pandemiyası real təhdidə çevrilməyə başlayanda buna qarşı birgə tədbirlər almaq üçün ilk dəfə Prezident İlham Əliyev beynəlxalq tədbirin keçirilməsi təşəbbüsü ilə çıxış edərək Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri statusunda bu təşkilatın dövlət və hökumət başçıları səviyyəsində aprel ayında fövqəladə Zirvə görüşü keçirdi. Videokonfrans vasitəsilə keçirilən bu görüşə Ümumdünya Səhiyyə Təşkilatının sədri də qatıldı.

Konfransda COVID-19-a qarşı mübarizə məsələləri müzakirə edildi və birgə tədbirlərin, eyni zamanda qarşılıqlı yardımlaşmanın vacibliyi vurğulandı. Azərbaycan şəxsi nümunə göstərərək bu günə qədər dünyanın 30-a qədər ölkəsinə yardımlar edib. Eyni zamanda, qarşılıqlı təcrübə mübadiləsi və ÜST-in tövsiyələri ölkəmizdə koronavirusa qarşı tədbirlər almaqda xeyli dərəcədə təsirli vasitəyə çevrilib. Bundan sonra yenə Azərbaycan Prezidentinin təşəbbüsü ilə mayın 4-də Qoşulmama Hərəkatının Təmas Qrupunun COVID-19 pandemiyasına həsr edilmiş onlayn Zirvə görüşü təşkil edildi. Bu tədbirdə Qoşulmama Hərəkatına üzv dövlətlərlə yanaşı, BMT-nin Baş katibi,



**Hikmət Babaoğlu,**
millət vəkili

BMT Baş Assambleyasının prezidenti, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru, Afrika İttifaqı və Avropa İttifaqı kimi beynəlxalq təşkilatların yüksək çinli nümayəndələri də iştirak etdilər".

Hikmət Babaoğlunun fikrincə, bu səviyyədə iştirakçılıq bir tərəfdən, problemin aktuallığı ilə bağlı idisə, digər tərəfdən Azərbaycan Prezidentinin nüfuzu və beynəlxalq təşkilatın sədri kimi şəxsi təşəbbüskarlığı ilə əlaqədar idi: "İndi isə Prezident İlham Əliyevin yeni təşəbbüsünü dəstəkləyən ölkələr dünyanın bütün regionlarını əhatə edir.

Onlar arasında BMT Təhlükəsizlik Şurasının daimi üzvlərindən tutmuş, kiçik ada ölkələrinə qədər dövlətlər var. Bu məsələ ilə əlaqədar BMT Baş katibinə ünvanlanan məktublarda Prezident İlham Əliyevin Baş Assambleyanın xüsusi sessiyasının keçirilməsi ilə bağlı təşəbbüsünün vaxtında irəli sürülmüş və çox ehtiyac duyulan təşəbbüs olduğu vurğulanır. Bu yüksək münasibət COVID-19-a qarşı mübarizədə yeni metod və üsulların tapılması ilə əlaqədar səyləri birləşdirməklə problemin mümkün həlli istiqamətlərinə də öz töhfəsini verə bilər. Bu gün bütün dünyada hamının, o cümlədən ölkəmizin və vətəndaşlarımızın tezliklə bu təhlükəli virisa qarşı evvektiv bir vasitənin tapılmasına ehtiyacı var. Ona görə də ölkəmizin bu təşəbbüsü dünya dövlətləri ilə bərabər cəmiyyətimiz tərəfindən də olduqca yüksək qiymətləndirilir".

***Tural***

# "Milli Şura"nın təmsilçiləri terrorçu Ermənistanı dəstəkləyirlər

**"Ümumiyyətlə, Emənistanın regiondakı bugünkü rolu ötən əsrin əvvəlində Çar Rusiyası parçalanandan sonra ermənilərin bölgədə tutduğu mövqeni və göstərdiyi fəaliyyəti xatırladır. Cənubi Qafqaz ölkələrindən birinin (Azərbaycan) ərazisinin 20 faizini işğal etmiş Ermənistan regionda qeyri-sabitliyin əsas mənbəyinə çevrilib.** Rusiya ilə hərbi-siyasi müttəfiqlikdən istifadə edən bu ölkə uzun illər yeritdiyi işğalçı siyasətə görə məsuliyyətdən kənarda qala bilmişdir. Bu gün regionda yaranmış yeni geosiyasi durum, terrorizm və ekstremizmlə mübarizənin bütün dünya üçün prioritetə çevrilməsi onun bölgədəki mövqeyinə də öz təsirini göstərməkdədir".

**■ Bunu hafta.az-a açıqlamasında siyasi ekspert Bəhruz Quliyev deyib. Ermənistan iqtisadiyyatının Azərbaycan iqtisadiyyatından müqayisəolunmaz dərəcədə zəif olduğunu vurğulayan Bəhruz Quliyev bildirib ki, Azərbaycan bütün cəhətlərdən Ermənistanı üstələyib və işğalçı ölkənin bizi keçmək şansına sahib ola bilməyəcəyi gözlər önündədir:**



**Bəhruz Quliyev,**
siyasi ekspert

"Heç bir iqtisadi imkanları olmayan, əhalisinin sosial-rifah halı günü-gündən pisləşən, ordusunda özbaşınalıqlar olan bir ölkənin inkişaf etmək şansları sıfıra bərabərdir. Ermənistan istər regional, istərsə də beynəlxalq layihələrdən kənarda qalıb, sosial-iqtisadi sahəsi digər sahələrdə olduğu kimi tamamilə çöküb. Bu gün Azərbaycan həqiqətlərini, reallıqlarını anlayan bir sıra dövlət və beynəlxalq təşkilatlar Azərbaycanı dəstəkləyirlər, Ermənistanı isə pisləyirlər. Hətta deyərdim ki, beynəlxalq təşkilatlar işğalçı dövlət olan Ermənistanın qlobal miqyasda layihədə iştirakına icazə vermirlər. Bir sözlə, Ermənistanın düşdüyü bu vəziyyət beynəlxalq münasibətlər sistemində onu uçuruma aparır".

Politoloqun fikrincə, işğalçı ölkədə "məxməri inqilab"ın rəhbəri kimi tanınan və küçədən hakimiyyətə gələn Nikol Paşinyan bütün vasitələrə əl atsa da, istəyinə qovuşa bilmir:

"Özü və ailəsi qaçaqmalçılıqla məşğul olan, Ermənistanın zəngin iş adamlarının pulunu mənimsəmək yolunu seçən Paşinyanın da Köçəryan və Sərkisyandan heç bir fərqi yoxdur. Paşinyan da elə onlar kimi bu gün yenə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı populist bəyanatlar səsləndirir. Ancaq əslində nə Paşinyan, nə ətrafı, nə də erməni xalqı güclü iqtisadiyyata və orduya malik Azərbaycanın istənilən an torpaqlarını işğaldan azad etməyə qadir olduğunu dərk etməmiş deyil.

Ermənistanda hakimiyyətin siyasi opponentləri təqib edilir, həbs olunur. O cümlədən Ermənistanda zəngin iş adamlarına qarşı cinayət işləri açılır və sonra da onlar pullarını xüsusi yaradılmış fonda köçürmək məcburiyyətində qoyulur. Həmin fondlardan da sonra bu pullar mənimsənilir. Ermənistanda korrupsiya, talançılıq, rüşvətxorluq, qohumbazlıq kütləvi xarakter alıb. Bu kimi hallara qarşı artıq Ermənistan cəmiyyətində Paşinyana qarşı niftrət hissi yaranıb və erməni ekspertlər də öz yazılarda bunu qabarıq şəkildə bildirirlər".

Prezident İlham Əliyevin Ermənistan hakimiyyətini tənqid etməsinin "Milli Şura"nı narahat etməsi məsələsinə də toxunan qurum rəhbəri əlavə edib ki, bu antimilli şuraçıların fəaliyyətlərinin əsas məğzi, məzmunu, xisləti antiazərbaycançılıq və antimilli yanaşma üzərində qurulub: "Siz bu gün "Milli Şura"nın təmsilçilərinin tutduğu mövqeyə fikir verin. Bu gün həm daxildə, həm də xaricdə oturub "Milli Şura"nın adından çıxış edən mühacirlər Azərbaycanın dövlətçilik mövqeyini, ümumxalq mövqeyini dəstəkləmək əvəzinə 20 faiz torpaqlarımızı işğal edən terrorçu Ermənistanı dəstəkləyirlər. Bu artıq antiazərbaycançılıq mövqeyinin göstəricisidir. Hesab edirəm ki, bu mövqe ermənipərəst qüvvələrin istədiyi və idarə etdiyi missionerlərin ortaya qoyduğu mövqedir.

Bu gün antimilli şurada toplaşanların mütləq əksəriyyəti 90-cı illərin əvvəlində əldə etdiyimiz müstəqilliyimizə, yenicə qurulan dövlətçiliyimizə xəyanət edərək, yalnız öz şəxsi maraqları və havadarlarının mənafeyi naminə məkrli siyasət yürüdüblər. İndi də bu xəyanəti davam etdirirlər. Onlar Azərbaycan xalqını, milli-dövlətçilik maraqlarını, müstəqilliyimizin davamlı olmasını, dövlətçiliyimizin güclənməsini, ərazi bütövlüyümüzün bərpasını, beynəlxalq miqyasda diplomatik nailiyyətlər, nüfuz, etibar qazanmağımızı düşünmürlər. Onlar 90-cı illərdə olduğu kimi, müxtəlif təxribatlarla Azərbaycanı xaosa, qarşıdurmaya, tənəzzülə sürükləməyə çalışırlar. Bu isə yalnız işğalçı Ermənistanın maraqlarına xidmət edən, ermənipərəst düşüncədən qaynaqlanan xəyanətkar yoldur".

***Tural***

## GÜNÜN TƏZADLARI

### Kosmosdan konstitusiya ilə bağlı düzəlişlərə səs verdilər



**■ Dünyada ilk dəfə olaraq insan Yer orbitindən kənarda səs verdi. Hafta.az-ın məlumatına görə, Rusiya vətəndaşı, Moskva qeydiyyatında olan kosmonavt Anatoli İvanişin Rusiyada keçirilən ölkə konstitusiyasına düzəlişlərlə bağlı 1 iyul referendumunda seçici kimi iştirak edib.** O, Beynəlxalq Kosmik Stansiyada onlayn səs verib. Digər rusiyalı kosmonavt İvan Vaqner isə fərqli üsulla səs verib. O, öz seçimini etibar etdiyi adama gizli söyləməklə səsvermədə iştirak etmək şansı qazanıb. Qeyd edək ki, Rusiyadakı 1 iyul referendumu üzrə səsverməyə Rusiya xaricində olan bəzi məntəqələrdə 25 iyundan başlanılıb.

### Xəzərdə boğulan kişini qadınlar xilas etdi



**■ Dağıstanın Kazbekovski rayonunun Kalininaul kəndinin sakinləri olan bir neçə qadın coşqun dalğalardan qorxmayaraq dənizdə boğulan oğlanı xilas etdi.** Hafta.az-ın yerli mediaya istinadla verdiyi xəbərdə deyilir ki, Xəzərin yaxınlığından keçən dağlı xanımlar sahilə yaxın sularda bir kişinin boğulduğunu görüblər. Cəsur müsəlman qadınlar dərhal köməyə yürüyüblər. Kalininaul orta məktəbinin müəllimələri xilasediciləri gözləməyin yeri olmadığını tez anlayaraq artıq batmış insanı suda axtarmağa başlayıblar. Qadınlar ucadan Quran ayələrini oxuyaraq Uca Yaradandan kömək istəyib. Nəhayət, oğlanı tapıb sudan çıxardanda onda artıq həyat əlamətləri olmayıb. Təcili yardım çağıran müəllimələr adama ilk yardım göstərməyə başlayıb. Oğlan ayılsa da, az sonra yenidən özünü pis hiss edib.

Həkimləri gözlədikdən və adamı həkimlərin təhvil verdikdən sonra dağlı qadınlar evlərinə yollanıb. Ertəsi gün müəllimələr xəstəxanaya telefon edərək cavanın vəziyyətini soruşublar. Həkimlər xəstənin sağ-salamat, vəziyyətinin qənaətbəxş olduğunu bildirərək deyiblər: "Zarafat edir. Deyir, suda batdıqdan sonra əhatəsində gözəl qızları görüb artıq cənnətdə olduğunu düşünüb... Hər kəsə təşəkkür edir».

### Hövsanda maşın karantin postundakı polisi vurdu



**■ Bakının Suraxanı rayonunda polis əməkdaşının xəsarət almasına səbəb olan yol qəzası baş verdi.** Hafta.az-ın verdiyi xəbərə görə, hadisə Hövsan qəsəbəsi ərazisində xüsusi karantin rejimi ilə əlaqədar qurulmuş polis nəzarət postunda qeydə alınıb. Minik avtomobili 1996-cı il təvəllüdlü Məmmədli Elşən Vadim oğlunu vurub. Yaralı dərhal xəstəxanaya yerləşdirilib. Faktla bağlı araşdırma aparılır.

### Binəqədidə taksi sürücüsü sərnişini soydu




**■ Bakıda taksi sürücüsü sərnişinini soydu. Hafta.az xəbər verir ki, Binəqədi rayon Xocasən qəsəbəsində taksinin sürücüsü 1985-ci il təvəllüdlü R. Bəbişovu döyərək mobil telefonunu və 45 manat pulunu quldurluq yolu ilə talayıb.** Binəqədi rayon Polis İdarəsinin 40-cı Polis Bölməsinin əməkdaşlarının keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni törətməkdə şübhəli bilinən, əvvəllər məhkum olunmuş, 1990-cı il təvəllüdlü Allahqulu Əzimov saxlanıb. Faktla bağlı araşdırma aparılır.

### Ronaldunun saç düzümü gülüşə səbəb oldu



**■ Turinin "Yuventus" komandasının hücumçusu Kriştian Ronaldunun yeni saç düzümü izləyicilərinin gülüşünə səbəb oldu.** Hafta.az xəbər verir ki, futbolçu "Instagram" hesabında yeni üslubda fotosunu paylaşıb. O, yarımmüdafiəçi Xuan Kuadrado ilə birlikdə poz verib. Portuqaliyalı saçlarını komanda yoldaşının qıvrımlarına bənzətmək üçün kəsdirib. "Qardaşım kimi görünmək cəhdim barədə nə düşünürsünüz?", - deyə o, izləyicilərinə sual ünvanlayıb. "Yuventus"un keçmiş futbolçusu Mehdi Benatia, eyni zamanda portuqaliyalı hücumçu Cessika Silva Ronaldunun saç düzümünə gülüblər, bir neçə istifadəçi onu hətta qoça oxşadıb, digəri hücumçunun yeni bərbərə ehtiyac duyduğunu bildirib.

### Futbol klubunun rəhbəri azarkeşlərin tələbi ilə istefa verdi



**■ Almaniyanın "Şalke" klubunun idarə heyətinin sədri Klemens Tennyes istefa verdi.**

Hafta.az-ın yazdığına görə, "Report" klubun rəsmi saytına istinadla xəbər verir ki, 64 yaşlı funksioner öz istəyi ilə postundan ayrılıb. Klub yeni sədrin daha sonra açıqlanacağını bildirib.

Qeyd edək ki, Klemens Tennyes 2001-ci ildən "Şalke"də klub rəhbəri olub. Almaniya mediasının yazdığına əsasən, komandanın azarkeşləri Bundesliqanın son turunda "Frayburq"a 0:4 hesablı məğlubiyyətdən sonra Tennyesi istefaya səsləyiblər. "Şalke" yanvardan bəri çempionatda qələbə qazana bilməyib.

***Sultan Laçın***

# Karantin müddəti uzanarsa, DİM adekvat addım atmalıdır

*Xəbər verdiyimiz kimi, ölkədə karantin müddətinin uzadılması məsələsi gündəmdədir. Vaxtın uzadılması imtahanların keçirilmə vaxtına da təsir edə bilər. Mövzunu hafta.az-a şərh edən təhsil eksperti Elçin Əfəndi dedi ki, imtahanların keçirilməsi və ya vaxtın uzadılmasıyaxşı nəsə vəd etmir:*



"Əvvəlki ilin məzunları imtahanları verməyiblər. Karantin müddəti uzadıldıqca abituriyentlər oxumaq istəmirlər, artıq beziblər. Dərslərdən uzaqlaşırlar. Bu il nəticə ürəkaçan olmayacaq. Blok imtahanlarının keçirilməsinin iyunun 20-dən sonra keçirilməsi nəzərdə tutulurdu. Belə uzadılma blok imtahanlarının vaxtını uzadır.

Psixoloji dəstəyə ehtiyac var. Abituriyentlər üçün həssas məqamlardır. DİM xüsusi karantin rejimi uzandıqca imtahanların keçirilməsi üçün adekvat addım atmalıdır. Ümumi müzakirələr aparılıb. Artıq ictimaiyyətdə narazılıq yaranır. Şagirdlərin vəziyyəti nəzərdə alınmalıdır".

■ **Təhsil eksperti Kamran Əsədovun fikrincə isə, 2020-ci il abituriyentlər üçün olduqca uğursuz il oldu:** "Mart ayının 3-dən orta məktəblərdə dərslər dayandı, ardınca onların qəbul və buraxılış imtahanlarında nəticə əldə etməsinə birbaşa təsir edən hazırlıq kursları və repititorluğun fəaliyyətinə məhdudiyyət tətbiq edildi və nəticədə şagirdlər normal dərsdən geri qaldılar. Artıq neçə dəfə karantin səbəbi ilə imtahanlar təxirə salınır. Bəli, insanların sağlamlığı hər şeydən önəmlidir. Amma düşünürəm ki, qaydalara əməl edilməklə imtahanların təşkili mümkündür. Son qərar şagirdlərə olduqca böyük psixoloji sarsıntı yaratdı. Artıq onların özlərinə olan inamı aşağı düşdü. Məhz bu amil onların qəbul imtahanlarındakı nəticələrə ciddi şəkildə təsir edəcəkdir. Mövcud vəziyyətdə imtahanların avqust ayının sonuna qədər uzanacağını gözləmək olar. Bu da şagirdlərin həm psixoloji, həmdə zehni yorulmasına gətirib çıxaracaq.

Hətta biz 9,10, 19 iyunda keçirilən buraxılış imtahanlarında şagirdlərin nəticələrini təhlil edəndə onların əvvəlki illərlə müqayisədə zəif yazdıqlarının şahidi olduq.

Təklif edirəm ki, qəbul və buraxılış imtahanları birləşdirilməklə vahid bir imtahan keçirilsin. Problemi yalnız belə həll etmək mümkündür. Belə ki, şagirdlər iki dəfə imtahana gəlməyəcəklər. Bununla yanaşı, yollarda və ictimai nəqliyyatda sıxlığın aradan qaldırılması, şagirdlərin rahatlığının təmin olunması üçün imtahan keçirilən günlərdə digər vətəndaşların küçəyə çıxması qadağan olunmalıdır.

İmtahanların vaxtının hər fədə uzanması şagirdlərə psixloji və mənəvi zərər vurursa da, valideyinləri də əlavə xərcə salır. Belə ki, bir çox müəllim repetitorlar və hazırlıq kursları online xidmət göstərirlər. Normalda may ayında başa çatmalı olan hazırlıqlar imtahanların uzanması səbəbindən daha da uzanır və valideyinlər əlavə hazırlıqlara pul ödəyirlər.

Ümumiyyətlə karantin rejiminin uzanması özəl təhsil sektorunun fəaliyyətinə də ciddi təsir göstərəcək və gələcəkdə onların fəaliyyəti sual altına düşəcək.

Hesab edirəm ki, əgər vahid imtahan keçirmək mümkün deyilsə, 5-15 iyul tarixləri arasında bütün ölkə ərazisində imtahanları təşkil etmək lazımdır. Çünki bundan sonra ixtisas qrupları üzrə imtahanlar var. İki imtahan arasında vaxtın azlığı abiturieyntlərin növbəti imtahana hazırlaşmasına mənfi təsir göstərir".

*✍ Ruzbeh*

# Sahibkarların güzəştli kredit almaq imkanları genişləndirilir

**Məlum olduğu kimi, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 4 iyun tarixli Fərmanı ilə İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına güzəştli kreditlərin verilməsi Qaydası təsdiq olunub və fondun nizamnaməsində dəyişikliklər edilib.**



Nazirlikdən hafta.az-a bildirilib ki, yeni qaydalara əsasən, Sahibkarlığın İnkişafı Fondunun sahibkarlığın güzəştli kreditləşdirilməsinin yeni mexanizmləri də tətbiq olunur. Bu mexanizmlərdən biri daşınmaz əmlak girovu olmayan sahibkarların güzəştli kreditlərə çıxış imkanlarının yaradılması məqsədilə avadanlıqların alınması üçün güzəştli kreditlərin verilməsidir. Mexanizmin mahiyyəti ondan ibarətdir ki, güzəştli kredit yeni avadanlıqların alınmasına yönəldilir və həmin avadanlıqlar da girov kimi qəbul edilir. Bu mexanizm üzrə bankların faiz dərəcəsi 7 faiz təşkil edir. Tətbiq olunan yeni mexanizm biznes subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının daha da genişlənməsinə, investisiya fəallığının, iqtisadi artımın və məşğulluğun dəstəklənməsinə əhəmiyyətli töhfə verəcək.

Bundan başqa, kənd təsərrüfatı üzrə uzunmüddətli investisiya tələb edən sahələrdə (məsələn, çayçılıq, bağçılıq və sair) kiçik həcmli kreditlər üzrə kredit müddəti 3 ildən 5 ilə, orta həcmli kreditlər üzrə 5 ildən 7 ilədək artırılıb və kredit dövrünün yarısı güzəşt müddəti olaraq təsbit edilib. Mexanizmin tətbiqində əsas məqsəd kredit risklərinin azaldılması, kiçik və orta sahibkarların güzəştli kreditlərə çıxış imkanlarının artırılmasıdır.

Təsdiq edilmiş digər mexanizm fors-major hadisə (təbii fəlakətlər, epidemiyalar və sair) ilə bağlı şəraitin dəyişməsi səbəbindən Sahibkarlığın İnkişafı Fondunun Müşahidə Şurasının müəyyən etdiyi qaydada kredit təşkilatlarının fond qarşısındakı borc öhdəliyinin zəruri hallarda restrukturizasiya olunması, kredit öhdəliyinin icrasına möhlət verilməsidir.

Fərmanla Sahibkarlığın İnkişafı Fondunun nizamnaməsində əlavə və dəyişikliklər edilərək fəaliyyət istiqamətlərinə zəmanət və subsidiya verilməsi mexanizmləri də əlavə olunub.

Bununla yanaşı, sahibkarlara verilən yeni kreditlər üzrə dövlət zəmanətinin verilməsi və həmin kreditlər üzrə faizlərin subsidiyalaşdırılması, eləcə də mövcud kredit borcu olan sahibkarların kredit faizlərinin bir hissəsinin dövlət tərəfindən maliyyələşdirilməsi mexanizmlərinin tətbiqinə başlanılıb. Belə ki, qeyri-neft sektoruna investisiya qoyuluşlarının və özəl sektorda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının artırılması, eləcə də koronavirus pandemiyasının işgüzar mühitə və iqtisadi fəallığa təsirinin minimuma endirilməsi məqsədilə mövcud maliyyə mexanizmlərinin genişləndirilməsi və əlavə dəstək alətləri tətbiq olunacaq.

Biznes kreditlərinə dövlət zəmanətinin verilməsi və həmin kreditlər üzrə faizlərin subsidiyalaşdırılması mexanizminə əsasən, 500 milyon manat həcmində yeni biznes krediti portfelinin 60 faizədək hissəsinə dövlət zəmanəti verilir, həmçinin həmin kreditlərin illik faiz dərəcəsinin 50 faizi dövlət tərəfindən maliyyələşdirilir. Bu mexanizm müddəti 3 ilədək, illik faiz dərəcəsi 15 faizdən çox olmayan kreditlərə şamil edilir. Bu kreditlər üzrə güzəşt müddəti 12 aya qədərdir.

Tətbiq edilən digər yeni mexanizmə uyğun olaraq, pandemiyadan zərərçəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarların dövlət zəmanəti olmayan mövcud 1 milyard manat kredit portfeli üzrə 2020-ci il martın 10-dək manatla aldıqları kreditlərin illik faiz dərəcəsinin 10 faiz bəndi mart ayından başlayaraq 12 ay ərzində dövlət tərəfindən maliyyələşdirilir. Bu mexanizm kreditlərin müddətindən və faiz dərəcəsindən asılı olmayaraq tətbiq edilir. Bu mexanizmin tətbiqi zərərçəkmiş sahibkarların maliyyə yükünün azaldılmasında əhəmiyyətli rol oynayacaq.

Ümumilikdə qeyd olunan proqramların icrası iqtisadi aktivliyin bərpa olunması, sahibkarların, xüsusilə də kiçik və orta sahibkarların maliyyə əlçatanlığının artırılması, pandemiyadan zərərçəkmiş fəaliyyət sahələrinə investisiya qoyuluşunun sürətləndirilməsi və bu fəaliyyət sahələri üzrə məşğulluğun qorunub saxlanması, maliyyə risklərinin bölüşdürülməsi, maliyyə-bank sektorunun canlanması, pandemiyadan zərərçəkmiş sahibkarların maliyyə vəziyyətinin yaxşılaşdırılması, bank sektorunda likvidlik və problemli kreditlərin həcminin yüksəlməsi risklərinin aradan qaldırılmasına imkan yaradacaq.

*✍ Sevinc*

# Xəstəxanalarda virusa yoluxmuş şəxslərə diqqət yüksək səviyyədədir

**Koronavirusa yoluxan xəstələrin müalicəsi dövlət hesabına aparılır. Bunun üçün Bakı şəhərində klinikalar ayrılıb. Həmçinin Prezident İlham Əliyev regionlarda da bu şəraitin yaranması üçün xüsusi tapşırıqlar verir. Yaxın günlərdə Gəncədə modul tipli xəstəxananın açılışında da iştirak etdi.**



Lakin sosial şəbəkələrdə bir qrup insanlar xəstəxanalarda müalicənin yaxşı aparılmaması kimi məsələləri qabardırlar. Həqiqətən bu və ya digər problemlər hazırki vəziyyətdə varmı?

■ **Bu barədə hafta.az-a danışan tibb elmləri doktoru Nuran Abdullayev bildirdi ki, təəssüf ki, atılan addımlara baxmayaraq, virusa yoluxanların və ölənlərin sayı artır:** "Yəqin ki, bu tədbirlər həyata keçirilməsəydi, yoluxma və ölüm hallarının sayı fantastik rəqəmlərlə müşahidə olunardı. Bu, bir daha onu göstərir ki, tətbiq edilən xüsusi karantin rejimi və məktəblərin bağlanılması istirahətlərin qadağan olunmasında virus daha da geniş yayıla bilməyib. Təbii ki, yoluxma və ölüm hallarının indiki artımı da müvafiq preventiv tədbirlərin səmərəsizliyindən irəli gəlmir. Bu, bütün dünyada belədir. Əgər insanlar məsuliyyətdən yayınıb şəxsi gigiyena qaydalarına əməl etməsələr, məsafə saxlamasalar, tibbi maskadan istifadə etməsələr, o zaman COVID-19-un yayılma sürəti də həyata keçirilən istənilən qabaqlayıcı tədbiri üstələyə biləcək. Virusun zərərsizləşdirilməsi isə peyvənd tapılana və ya insanlar immunitet qazanana qədər qeyri-mümkündür", - deyə Nuran Abdullayev qeyd edib.

Həkim yayılan söz-söhbətlərə fikir bildirərkən qeyd etdi ki, dövlətin virusun yayılmasının qarşısının alınmasına qarşı həyata keçirdiyi tədbirlərə cəmiyyət tərəfindən də lazımi dəstək verilərsə, bu zaman virusun yayılma sürəti kifayət qədər azalar:

"Lakin təəssüflər olsun ki, son günlərdə vətəndaşların laqeyd münasibəti və etinasızlığı, təcrid qaydalarına riayət olunmaması nəticəsində yoluxma halları daha da artır. Yaxın keçmişə nəzər salsaq, aprel və may aylarına nisbətən hazırda ölkəmizdə yoluxma hallarının necə sürətlə yayıldığını görürük. Bu sürətin artım tempinə ölkəmizdə koronavirusun geniş yayıldığı rayon və şəhərlərin sakinlərinin digər rayon və şəhərlərə istirahətə yollanması da müəyyən mənada köməklik göstərib. Təsəvvür edin ki, simptomsuz virus daşıyıcısı koronavirusun yayılmadığı rayon və şəhərə istirahətə gedirsə, bu, getdiyi ərazidə nə qədər insanı yoluxdurması deməkdir. Beləliklə, bir nəfərin məsuliyyətsizliyi ucbatından daha bir rayon və ya şəhər təhlükə altına düşmüş olur".

*✍ Ruzbeh*

# Gömrük Akademiyasının magistratura səviyyəsi üzrə qəbul planı 100 faiz dolub



**Dövlət İmtahan Mərkəzinin ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul olmaq üçün keçirilən müsabiqənin nəticələri ilə bağlı statistikasına əsasən, Dövlət Gömrük Komitəsinin Akademiyası (DGKA) üzrə yüksək göstərici qeydə alınıb.**

Belə ki, Gömrük Akademiyasının magistratura səviyyəsi üzrə qəbul planı 100 faiz dolub. DGKA-dan hafta.az-a bildirilib ki, bu il akademiyaya magistratura səviyyəsinə qəbul üçün Dünya iqtisadiyyatı istiqaməti üzrə "Gömrük işi" ixtisasına10 yer və Hüquqşünaslıq istiqaməti üzrə "Cinayət hüququ, cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası" ixtisasına 5 yer ayrılıb. Onu da qeyd edək ki, akademiyanın magistraturasına qəbul olan magistrantların hamısı dövlət sifarişi əsasında təhsil alacaqlar.

Qeyd edək ki, iyulun 6-dan 15-dək magistratura səviyyəsinə qəbul olmuş bakalavrların qeydiyyatının aparılması və sənədlərinin qəbul edilməsi nəzərdə tutulub.

Bu istiqamətdə koronavirus pandemiyasına qarşı bütün təhlükəsizlik tələbləri gözlənilməklə hazırlıq işləri aparılır və bununla bağlı əlavə məlumat veriləcək.

# Dünyada 186 jurnalist koronavirus səbəbindən həyatını itirib

**Son dörd ay ərzində 35 ölkədə azı 186 jurnalist koronavirus səbəbindən həyatını itirib. Bu barədə məlumat "Press Emblem Campaign" qeyri-hökumət təşkilatının Cenevrədə dərc olunan hesabatında yer alıb.**



İyun ayında COVID-19 infeksiyası səbəbindən ölən jurnalistlərin sayı 59 nəfər təşkil edib. Təşkilat qeyd edir ki, bəzi ölkələrdə pandemiya ilə bağlı statistikanın tam olmadığı və ölənlərin hamısı koronavirus testindən keçirilmədiyi üçün onların sayı daha çox ola bilər. Bu göstəriciyə görə Latın Amerikası ölkələri liderlik edir. Burada 93 KİV əməkdaşı COVID-19 infeksiyasının qurbanı olub. Sonrakı yerlərdə Asiya (34), Avropa (26), Afrika (19) və Şimali Amerika (14) ölkələri qərarlaşır.

Jurnalistlər arasında ən çox ölüm halları Peruda qeydə alınıb - 37 nəfər. "Press Emblem Campaign" təşkilatının siyahısında ölkələr üzrə növbəti yerləri Braziliya (16), Meksika (14), ABŞ (13), Ekvador (12), Pakistan (10), Banqladeş (9), Hindistan (9), Nigeriya (8), Böyük Britaniya (7), Boliviya (5), Rusiya (5), Nikaraqua (4) və Fransa (4) tutur. Bundan başqa mətbuat işçiləri arasında ölüm halları Dominikan Respublikası, İspaniya, İtaliya və Kamerunda da baş verib. Təşkilatın məlumatına görə, 2020-ci ilin ilk altı ayı ərzində dünyanın 18 ölkəsində 33 jurnalist qətlə yetirilib. KİV nümayəndələri üçün ən təhlükəli ölkə Meksika sayılır.

Qeyd edək ki, 2004-cü ildə təsis olunan "Press Emblem Campaign" BMT yanında məsləhətçi statusuna malikdir. Qurumun məruzələri BMT-nin, mətbuatın və qeyri-hökumət təşkilatlarının məlumatları əsasında hazırlanır.

# Dövlətin ayrı-ayrı sahələrə yardım mexanizminə yenidən baxmasına ehtiyac var



**"Azərbaycanda iyulun 5-dən sonra karantin rejiminin iki həftəlik uzadılması üçün təkliflər var. Fikir ondan ibarətdir ki, karantin rejimi uzadılsın". Bunu Prezidentin köməkçisi Hikmət Hacıyev Operativ Qərargahın keçirilən son brifinqində deyib.**

O bildirib ki, Azərbaycan hökuməti koronavirusa qarşı mübarizə tədbirləri çərçivəsində vətəndaşlarla mütəmadi münasibətlər qurur: "Dünya miqyasında koronavirusla bağlı vəziyyət heç də ürəkaçan deyil. Qarşıda bütün dövlətləri qeyri-müəyyənlik gözləyir, virusa necə qalib gəlinəcəyinə dair konkret cavab yoxdur. Yoxsulluq, işsizlik, aclıq kimi problemləri koronavirus daha da ağırlaşdırır. Ekspertlərin fikrincə, dünya iqtisadiyyatını 1933-cü ildən bəri görünməyən bir tənəzzül gözləyir. Dünyanın hər bir yerində koronavirus tam aradan qalxmayınca dünyanın başqa bir yerində rahat olmaq mümkün olmayacaq. Müəyyən ölkələrdə açılmalar olandan sonra virusun yayılmasına görə yenidən qapanmalara gedildi". Maraqlıdır, daha iki həftə karantin rejiminin tətbiqi ölkə iqtisadiyyatı üçün nə vəd edir, ciddi təsirlər olacaqmı?

■ **Bu barədə hafta.az-a danışan iqtisadçı ekspert Natiq Cəfərli hesab edir ki, ilk karantin dövrlərində tətbiq olunan praktika müəyyən mənada vətəndaşlar üçün yaxşı idi, həmin mexanizmə ehtiyac var:**

"Əslində, birinci dəfə karantin rejimi tətbiq olunanda aprel-may ayları ilə bağlı hökumət tərəfindən müəyyən addımlar atıldı ki, karantinin vurduğu ziyanın bir qismi heç olmasa aradan qaldırılsın. 190 manat məsələsi də vətəndaşlar üçün müəyyəm mənada yaxşı idi. Bu praktika iyun ayında da uzadıldı, ən azından, karantin tətbiq olunan zonalarda Bakı, Abşeron, Gəncə, Sumqayıt ərazisində yaşayan vətəndaşlar yararlana biləcəklər.

Amma bizneslə bağlı bu cür paketlər iyun ayının 1-də bitdi. Sahibkarlar çox böyük əziyyətlər çəkirlər. Onlarla bağlı hökumət tərəfindən hər hansı bir addımın atılacağı gözlənilmir, ən azından bununla bağlı müzakirələr də getmir və bu çox ciddi bir problemdir. Əgər karantin müddəti iki həftə də uzadılsa, bu, o deməktir ki, iyun-iyul ayları da qapadılan sahələrdə çalışan sahibkarlar üçün ağır olacaq. İcarə problemləri də həll olunmayıb. İcarədarlarla, icarəyə verənlər arasında ciddi problemlər var. Onlar ödənişlərini edə bilmirlər, çox vaxt onlara heç bir güzəşt olunmur. Vergilərlə bağlı iyunun 1-dən müəyyən güzəştlər nəzərdə tutulurdu, indi o güzəştlər də artıq ləğv olundu. Bundan başqa bank kreditləri ilə bağlı heç bir addım atılmadı, əsasən də kiçik və orta sahibkarların kreditlərinin kifayət qədər faizləri hesablanır və onlar kreditlərin qaytarılması ilə ciddi problemlər yaşayacaq. İqtisadiyyatın da dövriyyəsi aşağı düşür. Bunun üçün dövlət ayrıca paket işləməlidir. Yaxşı olardı ki, dövlət ayrı-ayrı sahələrə yardım mexanizmini yenidən baxsın".

*✍ Ruzbeh*

# Cinsə görə ayrı-seçkilik səbəbindən 140 milyon qız "itirilib"

**BMT-nin Əhali Fondunun hazırladığı "Dünya əhalisinin vəziyyəti" adlı qlobal hesabatın builki sayı işıq üzü görüb. Hər il təşkilatın qlobal miqyasda məşğul olduğu bu və ya digər mövzuya həsr edilən hesabatda bu dəfə dünyada qadınların və qızların hüquqlarının pozulması ilə nəticələnən müxtəlif zərərli təcrübələr və onlarla mübarizə mövzuları qabardılıb.**



Fonddan hafta.az-a verilən məlumata görə, hesabatda qeyd olunur ki, hər il dünyada milyonlarla qız ailələrinin, yaxınlarının və yaşadıqları icmaların razılığı ilə onları fiziki və mənəvi əziyyətlərlə üz-üzə qoyan zərərli təcrübələrin təsirinə məruz qalır.

Daha çox dünyanın müxtəlif yerlərində mövcud olan adət-ənənələrdən qaynaqlanan bu zərərli təcrübələr sırasında qızların erkən yaşda ərə verilməsini, qadın sünnətini, gender-əsaslı cinsi ayrıseçkiliyi (oğlan uşaqlarına qızlara nisbətən daha çox dəyər verilməsi) və digər spesifik halları qeyd etmək olar.

"Qızlara qarşı tətbiq olunan bu cür zərərli təcrübələr onların həyatında uzunmüddətli və dərin travma izləri qoymaqla yanaşı, qızların öz potensiallarını realizə etmək hüququnu əllərindən almış olur", deyə BMT-nin Əhali Fondunun icraçı direktoru Nataliya Kanem qeyd edib.

Hesabata əsasən, ilin sonunadək dünyada təqribən 4,1 mln. qızın qadın sünnəti adlanan əziyyətli və zərərli prosedura məruz qalacağı gözlənilir. Eyni zamanda, hər gün dünyada orta hesabla 33 000 yetkinlik yaşına çatmayan qız uşağı özündən böyük şəxslərə zorla ərə verilir.

Sənəddə o da vurğulanır ki, bəzi ölkələrdə qız uşaqları ilə müqayisədə oğlan uşaqlarına daha çox üstünlüyün verilməsi təcrübəsi cinsi zəmində ayrıseçkilik fenomeninin güclənməsi və beləliklə 140 mln. "itirilmiş" qız övladlarının həyata gəlməkdən məhrum edilməsi ilə nəticələnib.

Azərbaycanın da daxil olduğu Şərqi Avropa və Mərkəzi Asiya regionunda erkən nikahlar əsasən qanunla qadağandır və bu hallar zəif sürətlə də olsa azalmaya doğru gedir. Buna baxmayaraq, regionun bəzi yerlərində erkən nikahlara hələ də geniş şəkildə rast gəlmək mümkündür - bəzi ölkələrdə qadınların 15%-i 18 yaşına çatmadan öncə ailə qurub, bəzi icmalarda isə iki qadından biri hətta uşaq yaşında ikən ərə verilib.

Qız övladlarına nisbətdə oğlan övladlarına üstünlüyün verilməsi də Şərqi Avropa və Mərkəzi Asiya regionunda müşahidə olunan zərərli təcrübələrdən biridir. Cənubi Qafqazın və Cənub-Şərqi Avropanın bir sıra bölgələrində daha çox qeydə alınan bu fenomen doğuşun cinslər arasındakı təbii nisbətinin pozularaq qızlara nisbətən daha çox oğlan uşağının dünyaya gəlməsinə səbəb olur.

"Bütün bu zərərli təcrübələrin kökündə bir amil dayanır: bu da qadınlara və qızlara cəmiyyətdə daha az dəyər verilməsidir", deyə BMT-nin Əhali Fondunun Şərqi Avropa və Mərkəzi Asiya üzrə regional ofisinin rəhbəri Alanna Armitaj qeyd edir. "Buna baxmayaraq, hamımız - hökumətlər, vətəndaş cəmiyyəti, rəy öndərləri və influyenserlər - birlikdə işləyərək qızların insan hüquqlarını əlindən alan bu zərərli təcrübələri keçmişə qovuşdura bilərik".

Hesabatda dünyanı əhatə edən COVID-19 pandemiyasının sözügedən zərərli təcrübələrin daha da geniş yayılmasına şərait yaratdığı da vurğulanır. Belə ki, pandemiya dünyanın bir çox yerində ailələrin öz iqtisadi yükünü azaltmaq üçün erkən nikahlara daha çox üz tutması ehtimalını artırır. Bununla yanaşı, sosial təcrid və karantin şəraitində təhsil müəssisələrinin bağlanması və hərəkətə qoyulan məhdudiyyət gənc qızların gündəlik həyat ritmini əngəlləyir, dəstək sistemlərinin fəaliyyəti qarşısında sədd çəkir.

"Pandemiya hər gün daha çox qızı müxtəlif risklərlə üz-üzə buraxır. Biz, dünyanın istənilən yerində qadınların və qızların öz hüquqlarından yararlana bilmələri və öz seçimlərini müstəqil şəkildə edə bilmələri üçün səylərimizi ikiqat artırmalıyıq", - deyə Alanna Armitaj bildirib.

*✍ Vüsal Tağıbəyli*

# Su çatışmazlığı və itkilərin səbəbləri açıqlanıb

**"Son onilliklərdə bir sıra su mənbələri tikililərin altında qalıb, bu göstərici 1990-cı illə müqayisədə 2,6 dəfə artıb. Bakıda əhalinin artımı, turizmin inkişaf perspektivi də su məsələsinə təsirsiz ötüşmür".**



■ Bunu Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində respublikada su təchizatı məsələsinin müzakirəsinə həsr olunmuş dinləmədə çıxış edən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin (ASC) sədri Qorxmaz Hüseynov deyib.

O bildirib ki, 2013-2019-cu illərdə 7 min 390 binada binadaxili içməli su xətti yenilənib: "3 min 350 binanın kommunikasiyası işlənib, 4 min 40 binanın kommunikasiyası hələ işlənməyib. Zirzəmisi olan 6 min 53 binada tullantı su xətləri yenilənib, 3 min 55 binanın zirzəmisi təmir olunub. Suyun keyfiyyəti də ildən-ilə yaxşılaşdırılır".

"Azərsu"nun sədri su çatışmazlığı və itkilərin səbəbləri barədə də danışıb: "Bu sırada magistral kəmərlər şəbəkə kimi istifadə edilir, sayğacdankənar istifadə halları, ictimai bulaqlar, bağ və həyət evlərində yaşıllıqların suvarılması zamanı sudan israfçılıqla istifadə olunması, tikinti normalarına cavab verməyən fərdi şəbəkələrin mövcudluğunu qeyd etmək olar".

"Bu ilin aprelində imzalanmış "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Sərəncama əsasən Komissiya yaradılıb". Qorxmaz Hüseynov deyib. O bildirib ki, Prezident İlham Əliyev əhalinin içməli su təchizatının yaxşılaşdırılmasına ciddi diqqət yetirir: "Dövlət başçısı son illər Bakı şəhəri və Abşeron yarımadası, respublikanın bir sıra şəhərlərinin, 210-dan çox kəndinin içməli su təchizatının yaxşılaşdırılmasıyla bağlı çoxsaylı sərəncam imzalayıb. Regional inkişaf proqramlarında əhalinin içməli su təminatının yaxşılaşdırılması mühüm vəzifə kimi qarşıya qoyulub. Görülən işlər əhalinin həyat şəraitini xeyli yaxşılaşdırıb. Pandemiya rejiminə baxmayaraq "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Sərəncama əsasən yaradılan komissiya qısa zamanda çox böyük işlər görüb. Eyni zamanda uzun illərdən bəri hazırlanmayan su balansı artıq hazırlanıb və ilkin təsdiqə verilib. Su balansının gələcəkdə daha təkmilləşməsi istiqamətində işlər görüləcək, ölçmə metodları daha yeni texnologiyaların tətbiqi ilə həyata keçiriləcək. Bu sənəddə ölkə üzrə olan bütün suların uçotu, qeydiyyatı, hərəkəti, itkiləri və səmərəliliyi tam qiymətləndiriləcək".

*✍ Sultan*

# Bakıxanov qəsəbə sakinləri "Həftə içi"nə minnətdarlıq edirlər



**Xatırladaq ki, "Həftə içi" qəzetinin 30 iyun 2020-ci il tarixli nömrəsində "İçməli su küçəyə axır" başlığı altında yazı dərc olunub.**

Həmin yazıda Sabunçu rayonu Bakıxanov qəsəbəsi, Oskar Əfəndiyev küçəsi, 12 saylı binanın həyətində içməli suyun 10 gündən çoxdur küçəyə axıdıldığı göstərilib.

Su fasiləsiz axdığından ərazidə natəmizlik yaranıb. Sakinlərin bu haqda müraciətini eşidən olmayıb. Sözügedən binanın sakinləri bildirdilər ki, "Həftə içi" qəzeti bu işə qarışdıqdan və qəzetdə dərc olunan məqalədən sonra, "Sabunçu Rayon Su Kanal İdarəsinin işçiləri tərəfindən gəlib sınan su xəttini təmir etdilər. Qəsəbə sakinləri "Həftə içi" qəzetinə və "Azərsu ASC"-nin rəhbərliyinə öz minnətdarlığını bildirirlər.

*✍ Qələndər*

# Siqaretlər bahalaşıb

**Dünəndən etibarən Azərbaycanda tütün məmulatlarının 0,10 manat bahalaşması iki vacib amilin təsiri nəticəsində baş verib. Bunu "APA"ya Azərbaycanda fəaliyyət göstərən beynəlxalq tütün məmulatlarının istehsalçısı olan şirkətdən bildirilib.**



Mənbənin sözlərinə görə, birinci səbəb - ölkədə bu ilin əvvəlindən aksiz vergisinin artırılmasıdır: "Bildiyiniz kimi, daxili istehsal üçün aksiz dərəcəsi siqaretlərin hər 1 000 ədədi üçün 20 manatdan 31 manata, idxal olunan siqaretlər üçün isə hər 1 000 ədədi üçün 28 manatdan 39 manata qaldırılıb. Yəni 20 manat olduğu təqdirdə, hər qutuya düşən aksizin yükü 0,40 manat təşkil edirdi. Əlavə olaraq 11 manat artırılandan sonra isə hər qutuya düşən aksizin qiyməti əlavə 0,22 manat artaraq 0,62 manata çatdırılıb. İstehsalçılar qiyməti 0,10 manat qaldırıblar, halbuki hər qutuya düşən aksizin qiyməti 0,22 manat artırılıb. Yəni faktiki olaraq 0,12 manatı şirkətlər öz üzərinə götürüb".

Qiymət artımının digər səbəbi isə bazarda qaçaqmalçılığa mübarizə mexanizmi kimi dəyərləndirilir.

"Ümumiyyətlə, qiymətlər cüzi artırılıb. Burada qaçaqmalçılıqla mübarizə ilə yanaşı, əlbəttə ki, əhalinin alıcılıq qabiliyyəti də nəzərə alınıb. Belə ki, bazarda aşağı seqmentli siqaretlərin qiyməti bir qayda olaraq artanda, qaçaq yolla gətirilən məhsullar onların yerini tutur. Bu isə leqal siqaretlərin satışına təsir edir. Beləliklə, biznes olaraq, həm biz itiririk, həm də dövlət büdcəsinə daxilolmalar azalır. O baxımdan biz aqressiv qiymət siyasəti yürütməməyə və artımın müəyyən qədər liberal olmasına çalışırıq", - deyə şirkətdən bildirilib.

*✍ Hafta.az*

# Maşın bazarında son vəziyyət necədir?

**Azərbaycanda "Aİ-95" markalı benzinin qiymətinin artmasının avtomobillərin bahalaşmasına da səbəb olacağını düşünmürəm. Bu barədə Trend-ə açıqlamasında əmlak məsələləri üzrə ekspert Vaqif Hüseynov deyib.**



Onun fikrincə, "Aİ-92" markalı benzinin qiyməti qalxsaydı, dərhal avtomobil bazarına təsir edəcəkdi: "Ancaq "Aİ-95" markalı benzindən ölkəmizdə geniş istifadə edilmədiyinə görə, qiymət artımının avtomobil bazarına təsiri olmayacağını söyləmək olar".

Maşın bazarında vəziyyətə gəlincə isə V.Hüseynov bildirib ki, hazırda aktivlik demək olar ki, yox dərəcəsindədir: "Əvvəllər daha çox dəyişilən avtomobillər 10-15 min manat civarında olan avtomobillər idi. Bu avtomobillər isə daha çox taksi fəaliyyəti, iş üçün istifadə olunurdu. Hazırda taksi fəaliyyəti üçün nəzərdə tutulan avtomobillərin satışında artım müşahidə olunmur. Bildiyiniz kimi karantin rejimi tətbiq olunur və taksilər icazəli şəkildə müəyyən fəaliyyət göstərirlər.

Lakin taksi fəaliyyəti göstərməyən və 15-20 min dəyərində avtomobili olan bəzi insanlar düşünür ki, avtomobili fəaliyyətsiz dayandırmaqdansa, bazara çıxarsın, lakin ümumilikdə karantin rejimi səbəbindən bazarda alıcı da yoxdur və avtomatik olaraq təklif tələbi üstələyir. Normalda təklif tələbi üstələyəndə qiymət azalması olmalıdır. Ancaq hazırda alıcı olmadığına görə qiymət nə azalır, nə artır".

# Sosial ödənişlər bütün ATM və POS-terminallardan faiz tutulmadan verilir



**Əmək pensiyaları, sosial müavinət, təqaüd və kompensasiya ödənişləri, eləcə də ünvanlı dövlət sosial yardımları bütün ATM və POS-terminallardan faiz tutulmadan verilir. Bu barədə hafta.az-a Azərbaycan Mərkəzi Bankından məlumat verilib.**

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Mərkəzi Bankı və Azərbaycan Banklar Assosiasiyası əhalinin nəzərinə çatdırır ki, "COVID-19" pandemiyası ilə əlaqədar olaraq xüsusi karantin rejimi müddətində bankomatlar qarşısında vətəndaş sıxlığının idarə olunması məqsədilə əmək pensiyalarını, sosial müavinət, təqaüd və kompensasiya ödənişlərini, eləcə də ünvanlı dövlət sosial yardımlarını istənilən bankın bankomatından, eləcə də "Azərpoçt" MMC-nin istənilən bankomat və ya pos-terminalından hər hansı əlavə faiz tutulmadan əldə edə bilərlər. Hər hansı sualınız olacağı təqdirdə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 142 - Çağrı Mərkəzinə, Mərkəzi Bankın səlahiyyətlərinə aid məsələlər barədə isə 966 - Qaynar xəttinə zəng edə bilərsiniz.

# Azərbaycanda quraqlıq gözlənilir

**Azərbaycanda bu il iyul-avqust aylarında quraqlığın müşahidə ediləcəyi gözlənilir. Bunu Trend-ə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Coğrafiya İnstitutunun direktor müavini, coğrafiya üzrə fəlsəfə doktoru Məhərrəm Həsənov deyib.**



Onun sözlərinə görə, iyulun 20-dən avqustun 20-dək olan dövrdə quraqlıqların daha çox olacağı ehtimal edilir. Quraqlığın daha çox Aran bölgəsində müşahidə ediləcəyi gözlənilir. M.Həsənov əlavə edib ki, belə quraq illər Azərbaycanda 2010 və ondan əvvəlki illərdə də müşahidə edilib. Azərbaycan əsasən, subtropik qurşaqda yerləşdiyindən burada yay aylarının quraq keçməsi bir neçə ildən bir müşahidə edilir. Yay aylarında cənub hava kütlələrinin - həm tropik siklonların, həm Şimali Afrikada - Ərəbistan yarmadası üzərində formalaşan isti hava kütlələrinin Azərbaycan ərazisinə daxil olması yayın quraq və isti keçməsinə səbəb olur.

Direktor müavini bildirib ki, adətən, yay aylarında Azərbaycan ərazisində yağıntının az düşməsi müşahidə edilir. Bu il isə yağıntıların daha da az olacağı gözlənilir. Bununla yanaşı, qlobal iqlim dəyişmələri fonunda Azərbaycanda havanın temperaturunun yüksəlməsi müşahidə edilir ki, bu da bir tərəfdən quraqlıqların daha çox olacağını şərtləndirir: "Əgər havanın sutkalıq temperaturu normadan 4-5 dərəcə yüksək olursa, isti külək əsirsə, havanın nisbi rütubəti 30 faiz və daha aşağı olursa, onda belə hava şəraiti quraq adlanır. Quraqlıqların yaranmasının əsas səbəbi iqlim amilləri, xüsusilə temperaturun yüksəlməsidir. Azərbaycanda son 30 ildə - təxminən 1990-cı ildən indiyədək havanın orta illik temperaturu çoxillik iqlim normasına nisbətən 0,6-,15, dərəcə yüksəlib". M.Həsənov qeyd edib ki, Azərbaycanın ən quraq ərazisi olan Kür-Araz ovalığındakı Beyləqan, İmişli, Saatlı, Sabirabad, Salyan, Neftçala, Ucar, Biləsuvar və s. rayonlar ölkəmizin əsas kənd təsərrüfatı rayonlarıdır.

Alim hesab edir ki, bu rayonlarda quraqlıq müahidə edilərsə və su ehtiyatları azalarsa, bu, kənd təsərrüfatına mənfi təsir göstərəcək: "Yay aylarında bitkilərin vegetasiyasının daha sürətlə getdiyi bir dövrdə quraqlığın olması kənd təsərrüfatına öz mənfi təsirini göstərəcək. Təbii ki, bu, təbiət hadisəsi olduğundan ona qarşı qabaqlayıcı effektli tədbirlər görmək mümkün deyil.

*✍ Hafta.az*

# Xaricdə təhsil alan tələbələrə təqaüdlər bu halda veriləcək

**Xaricdə təhsil alan tələbələrə təqaüdlərin ödənilməsi üçün onların təhsil aldıqları ölkələrə giriş-çıxış vizası olmalıdır.** Bunu 2019-2023-cü il Dövlət Proqramının İdarəetmə Qrupunun rəhbəri səlahiyyətlərini müvəqqəti icra edən, Təhsil Nazirliyinin Xaricdə təhsil və əcnəbi tələbələrlə iş sektorunun müdiri Müjdat Həsənov deyib.

Onun sözlərinə görə, pandemiya şəraiti olduğu üçün həmin məsələlərə fərdi qaydada baxılacaq: "Tələbə təhsil yerində deyilsə, ona yaşayış xərcinin ödənilməsi nəzərdə tutulmur".

# İstehlaka yararsız 7 tona yaxın ət aşkar edilib



◂ əvvəli 1-ci səhifədə

Belə ki, baxış zamanı qeyd olunan kəsimxanada 6 890 kq çəkidə ət məhsulu aşkar edilib, həmin məhsullardan götürülmüş nümunələr Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin laboratoriyasında müayinə olunaraq yararsız kimi qiymətləndirilib, ət nümunələrinin xəstə, ölmüş heyvan əti olması və istehlak üçün uyğun olmaması müəyyən edilib. Faktla bağlı Cinayət Məcəlləsinin 29, 200.2.2 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən istehlakçıları aldatmaya cəhd) və 200.2.3 (külli miqdarda ziyan vurmaqla törədildikdə) maddələri ilə cinayət işi başlanıb.

Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların tam, hərtərəfli yoxlanılmaqla təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Alimlər koronavirusdan ölüm hallarına genetikanın təsirini araşdırıblar

***Britaniyalı alimlər 15 ölkədə yaşayan insanların genini analiz edərək COVID-19 xəstəliyinin ağırlığı və ölüm halları üzrə genetik risk qrupuna aid insanlar arasında müsbət əlaqənin olduğunu müəyyənləşdirib.***



Bu barədə Con Murs adına Liverpul Universitetinin genetika alimi İldus Əhmədov açıqlama verib. "Bütün ölkələrdə hər milyon insana düşən ölüm hallarının statistikasında fərq müşahidə olunur. Ölümlərə əhalinin orta yaş səviyyəsi, tibbi yardımın keyfiyyəti, karantin tədbirləri, testlərin miqdarı və bu kimi müxtəlif faktorlar təsir edə bilir. Biz apardığımız tədqiqatda bu məsələyə digər tərəfdən yanaşdıq" - deyə o bildirib.

Alimin sözlərinə görə, COVID-19 xəstəliyinin ağır keçməsi ilə bağlı hazırda altı mutasiya aşkar olunub. Onlar qanın laxtalanmasına, maddələr mübadiləsinə, damarların tonusuna, immun statusuna və respirator funksiyalara cavabdeh olan genlərdə lokallaşıb.

"Bu mutasiyaların aşkarlanmadığı insanlar, çox güman ki, koronavirus xəstəliyiniu yüngül və hətta simptomsuz keçirəcək. Əgər insan çox sayda mutasiyanın daşıyıcısı olsa, müvafiq risk faktorlarının (məsələn, yaşlılıq, artıq çəki) mövcudluğu onun reanimasiyaya düşmə riskini artıracaq. Biz müxtəlif ölkələrdə həmin mutasiyalara nə qədər çox rast gəlindiyini və bu göstəricilərin ölüm halları ilə bağlılığını yoxlamaq qərarına gəldik", - deyə İldus Əhmədov qeyd edib.

Tədqiqat nəticəsində mütəxəssislər yüksək genetik riskin mövcud olduğu ölkələrdə ölüm hallarının çoxluq təşkil etdiyini aşkarlayıblar. Belə ki, çinlilərdə və Şərqi Asiyanın digər nümayəndələrində belə insanların sayı çox azdır - 11 faizə yaxın. Çinlilərlə müqayisədə ispanlar arasında çox sayda mutasiya daşıyıcıları üç dəfə, italiyalılar arasında isə dörd dəfə artıqdır. Ən çox risk daşıyan insanlar isə Afrika millətləri arasındadır.

COVID-19 pandemiyasının statistikasını aparan Worldometer saytının iyunun 30-na olan məlumatına əsasən, infeksiyadan sağalanlara nisbətdə ölənlərin sayı 8,14 faiz, aktiv xəstələr arasında vəziyyəti ağır olanların sayı isə 1 faiz təşkil edir.

Birləşmiş Ştatlar COVID-19 xəstəliyindən ölənlərin sayına görə də dünya lideridir - 130 min 123 nəfər. İlk beşliyə daxil olan Braziliyada 59 min 656, Birləşmiş Krallıqda 43 min 730, İtaliyada 34 min 767, Fransada isə 29 min 843 nəfər koronavirus səbəbindən həyatını itirib.

# "Real"ın qapıçısı klub alıb

**Belçika millisinin və İspaniya "Real"ının qapıçısı Tibo Kurtua özünə klub alıb. Qolkiper "Betis"in futbolçusu Borxa İqlesiasla birlikdə Madridin "İnter" klubuna sahib çıxıb.**

Bu komanda İspaniya çempionatının 3-cü divizionunda mübarizə aparır. Bu, Kurtua və İqlesiasın ilk şərikliyi deyil. Bir müddət öncə onlar "DUX Gaming" kiberidman komandasını da alıb.

Qeyd edək ki, Kurtua cari mövsümdə "Böyük beşlik"də ən çox quru oyun keçirən qapıçıdır.

# Gerye rəsmən "Qarabağ"da



**Donald Geryenin yenidən "Qarabağ"a qayıtması rəsmiləşib. Hafta.az xəbər verir ki, bu barədə Haiti millisinin futbolçusu instaqram hesabında yazıb.**

O, sabiq komandasına geri döndüyünü açıqlayıb.

Qeyd edək ki, Donald Gerye 2017-2019-cu illər ərzində də "Qarabağ"da çıxış edib. O, Ağdam təmsilçisindən ayrıldıqdan sonra "Neftçi"yə keçmişdi. Gerye "Qarabağ"la ikiqat Azərbaycan çempionluğu (2018, 2019) qazanıb.

# "Nyu Orlean" klubunun üç basketbolçusu koronavirusa yoluxub

**MBA klublarında koronavirusa yoluxan basketbolçuların sayı artır. Liqanın komissarı Adam Silver yoluxma halına baxmayaraq çempionatı bərpa edəcəklərini söyləsə də, indiki vəziyyət heç də ürəkaçan deyil.**




Qərb konfransında mübarizə aparan "Nyu Orlean"ın üç oyunçusunun koronavirusa yoluxduğu məlum olub. Bu barədə klubun vitse-prezidenti Devid Qriffin məlumat verib. Klub rəsmisi həmin oyunçuların adlarının açıqlanmayacağını bildirib.

Qriffin, həmçinin basketbolçuların hər gün koronavirus testindən keçdiyini və hazırda yoluxucu infeksiya daşıyanların təcrid olunduqlarını deyib. Bildirib ki, bu oyunçular sağaldıqdan sonra ardıcıl iki gün testdən keçəcək və hər dəfə neqativ cavab aldıqdan sonra komandaya qoşula biləcəklər.

Artıq komandalar çempionatın keçiriləcəyi Orlandoya yollanır. Onlar mübarizəni başa vuranadək şəhəri tərk edə bilməyəcəklər. Bir neçə gün öncə isə MBA-da çıxış edən basketbolçulardan 302-si, testdən keçmiş və onlardan 16-sında yoluxucu infeksiya aşkarlanmışdı.

# Yeni ödənişli avtomagistralın 30 km-lik hissəsinin tikintisi sona çatır

**"Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin tərkib hissəsi olan M-1 Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun "Yaşma bağları" yaşayış məntəqəsindən başlayaraq tikilməsi ilə bağlı Prezident İlham Əliyevin imzaladığı sərəncamlara əsasən, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən tikintisi sürətlə və keyfiyyətlə davam etdirilir.**



Agentlikdən hafta.az-a bildirilib ki, artıq ödənişli avtomagistralın Xızı rayonunun Yaşma və Giləzi qəsəbələri arasında yerləşən 30 km-lik hissəsində tikinti işləri bitmək üzrədir. Şabran rayonunun Gəndob kəndi və Qusar rayonunun Samur qəsəbəsi (Rusiya sərhədi) arasında yerləşən 58 km-lik hissəsində isə tikinti işləri bu ilin sonunadək bitəcək.

M-1 Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 45-ci kilometrliyindən, "Yaşma bağları" yaşayış məntəqəsindən başlayan və 150 km uzunluğunda olan yeni yol 1b texniki dərəcəyə uyğun olaraq inşa edilir. 4 hərəkət zolaqlı olacaq yolun hər bir zolağının və çiyinlərin eni 3.75 m, ayırıcı zolağın eni 5 m olmaqla yol yatağının eni 27.5 metr təşkil edəcək.

Layihədə tikinti işləri 5 hissə üzrə aparılır. Bu yeni yolun 0-30, 30-53.5, 53.5-73.5, 73.5-92 və 92-150-ci km-lik hissələrini əhatə edir. Hazırda tikinti işləri yeni magistralın 1-ci (Yaşma-Giləzi) hissəsi üzrə yekunlaşır. 5-ci (Gəndob-Samur) hissə üzrə isə işlərin bu ilin sonunadək yekunlaşdırılması nəzərdə tutulur. Qalan 3 hissə üzrə tikinti işlərinin 2021-ci ilin 2-ci yarısında yekunlaşdırılması planlaşdırılır.

Layihənin və I hissənin başlanğıcı mövcud M-1 Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 45-ci km olmaqla, yeni yolun 7 km-lik hissəsi beton yol üzrə layihələndirildiyindən mövcud sement-beton örtüyü, köhnə asfalt frezlənib, yararsız material qazılıb çıxarılıb, daha keyfiyyətli material ilə tökmə işləri yerinə yetirilib, qruntun zəif olduğu yerlərində qaya dolğu işləri icra edilib, yol geyimi aşınma layına qədər tikilib.

Yeni layihələndirilən yolun I hissəsi üzrə (0-30 km) hamarlayıcı lay, əsas lay və asfalt-beton örtüyün 2 layı tikilib. Belə ki, 29 sm hündürlükdə olacaq asfalt-beton örtüyünün aşınma layının tikintisi qalıb ki, bu çərçivədə işlər yaxın müddət ərzində icra olunacaq. Layihə üzrə nəzərdə tutulmuş körpülərin, tunellərin və suötürücü boruların tikintisi və kommunikasiya işləri də tamamlanıb.

Yeni magistralın tikintisi yekunlaşan hissəsi üzrə hazırda ödəniş məntəqələrinin qurulması istiqamətində addımlar atılır. Ümumilikdə hər bir hərəkət istiqaməti üzrə magistralın 52-ci km-də (Yaşma) 171-ci km-də (Qusar-Xudat yolu ilə kəsişmə) 4 nəzarət-buraxılış zolağı fəaliyyət göstərəcək. Onlardan 1-i avtonəqliyyat vasitələrinin sürətli, 2-i adi qaydada keçidi təmin edəcək. 1 keçid isə ehtiyyat keçidi olacaq və qabariti normadan böyük olan nəqliyyat vasitələrinin keçməsi üçün də istifadə olunacaq.

Bundan başqa yeni avtomagistrala 73, 103, 132 və 154-cü km-də yerləşən 4 iri yaşayış məntəqəsindən yol qovşaqları vasitəsi ilə daxil olmaq mümkün olacaq. Bu Giləzi y/məntəqəsi, Siyəzən və Şabran rayonları, həmçinin Quba-Xaçmaz avtomobil yolu ilə kəsişən ərazidir. Sözügedən ərazilərdə isə hər bir hərəkət istiqaməti üzrə 2 nəzarət buraxılış zolağı fəaliyyət göstərəcək. Yeni magistral avtomobil yolundan istifadə üçün ödəniş hər km-ə görə yük və minik avtomobillərinə görə fərqli məbləğdə olması nəzərdə tutulub. Hazırda ödəniş məbləğinin müəyyən edilməsi istiqamətində aidiyyəti qurumlarla məsləhətləşmələr aparılır.

Yeni ödənişli avtomagistralın keçdiyi ərazi Xəzər sahili boyu Samur-Dəvəçi ovalığından yerləşir əsasən yaşayış məntəqələrindən və sənaye müəssisələrindən kənar keçir. Tikiləcək yolun ətraf mühitə, o cümlədən faunaya mənfi təsirini azaltmaq məqsədilə heyvanlar üçün yolaltı keçidlərin tikintisi nəzərdə tutulur.

Qeyd edək ki, yeni avtomobil yolunun tikilməsi nəqliyyat xidmətlərini daha da yaxşılaşdırılması ilə yanaşı, bölgədə turizmin inkişafına əlavə təkan verəcək, dəhlizlə yük və sərnişin daşımalarında əsas rol oynayaraq, respublikamızın iqtisadi maraqlarına uyğun olaraq yüklərin, o cümlədən tranzit yüklərin daha geniş cəlb olunmasına, yük həcminin çoxalmasına və gəlirlərinin artmasına, ölkəmizin nəqliyyat infrastrukturunun inkişafına, yeni iş yerlərinin açılmasına, öz növbəsində, bir çox sosial problemlərin həllinə şərait yaradacaq.

*Hafta.az*

ŞOU-BİZNES

# Hollivud prodüserindən 19 milyon dollar alacaqlar

**Hollivud prodüseri Harvi Vaynşteynin zərər vurduğu şəxslər 19 milyon dollar alacaqlar. Bu barədə Nyu-York ştatının baş prokuroru Letisiya Ceyms qərar verib.**



Lakin bu ödənişi prodüserin müflis elan edilməsi üzrə işi aparan dairə məhkəməsi də təsdiqləməlidir. Məhkəmə qərarı təsdiqləyəcəyi təqdirdə H.Vaynşteyn tərəfindən seksual zorakılığa məruz qalan qadınlar kompensasiya üçün xüsusi fonda müraciət edə biləcəklər. Qeyd edək ki, 2017-ci ildə H. Vaynşteyn ətrafında qalmaqal yaşanıb.

80-dən çox qadın onu seksual zorakılıqda ittiham edib. Onların arasında məşhur aktrisalar da olub. Martın 11-də H.Vaynşteyn günahkar bilinib. O, öz cəsazını Nyu-York ştatının həbsxanasında çəkəcək.

# Tolqahan Sayışmandan 420 minlik "yatırım"



**Türkiyəli aktyor Tolqahan Sayışman bu dəfə avtomobili ilə gündəmə gəlib. Hafta.az axşam.az-a istinadən bildirir ki, aktyor özünə 1 milyon 700 minlik TL-yə (təxminən 421 min 770 manat) "Range Rover" markalı avtomobil alıb. T.Sayışman həyat yoldaşı Almeda Abaziyə eyni markanın 1 milyon 300 min TL-lik (təxminən 322 min 530 manat) maşınını hədiyyə edib.**

Qeyd edək ki, aktyorun 8 milyonluq (təxminən 1 milyon 984 min manat) villasının qarajında 2 motosikleti də var.

İDMAN

# Lionel Messi karyerasında 700-cü qolunu vurub

**İyunun 30-da futbol üzrə İspaniya La Liqasının 33-cü turu çərçivəsində keçirilən "Barselona" - "Atletiko Madrid" oyunu meydan sahiblərinin argentinalı hücumçusu Lionel Messi üçün əlamətdar olub.**

Matçda 11 metrlik cərimə zərbəsini dəqiq yerinə yetirən futbolçu karyerasında 700-cü dəfə fərqlənib.

L.Messi bu qolların 630-nu "Barselona"nın heyətində keçirdiyi 724 matçda vurub. O, Argentina millisinin heyətində keçirdiyi 138 matçda 70 dəfə rəqib qapılarına yol tapıb.

Otuz üç yaşlı hücumçu La Liqanın cari mövsümündə meydana çıxdığı 28 matçda 22 qol vurub və 17 məhsuldar ötürmə edib. Onun "Barselona" klubu ilə müqaviləsinin müddəti 2021-ci ilin yayında başa çatacaq.



# Fransa çempionu "Bavariya" ilə müqavilə bağlayıb




**Almaniyanın "Bavariya" klubu növbəti transferini rəsmiləşdirib. Bundesliqanın çempionu Tanqi Kuassinin keçidini açıqlayıb. Fransanın PSJ klubunun 18 yaşlı müdafiəçisi yeni komandasına azad agent kimi qoşulub. Onunla 2024-cü ilin yayına qədər müqavilə imzalanıb.**

Qeyd edək ki, PSJ-nin yetirməsi olan Kuassi ötən mövsümdən əsas komandaya cəlb olunub. O, çempionu olduğu Liqa1-də 6 oyun keçirib və 2 qol vurub.

# "Napoli" Çengiz Ündərlə anlaşıb

**İtaliyanın "Roma" klubunun futbolçusu Çengiz Ündər mövsümlərarası fasilədə komandasını dəyişə bilər. 22 yaşlı yarımmüdafiəçi A seriyasının digər klubu "Napoli"yə keçməyə yaxındır.**



Neapollular hücumameylli yarımmüdafiəçi ilə anlaşıb. Onun keçidi baş tutsa, yeni klubunda mövsümə 3 milyon avro qazanacaq. Lakin türk futbolçunun transferi üçün iki klub arasında da razılıq əldə olunmalıdır. Paytaxt təmsilçisi futbolçusu üçün 30 milyon avro istəyir. Qeyd edək ki, Çengiz cari mövsüm 21 oyunda 3 qol vurub.

# UEFA 55 assosiasiyaya maliyyə yardımı göstərəcək




**UEFA quruma üzv olan 55 assosiasiyaya 775,5 milyon avro maliyyə yardımı göstərəcək. Yardım 2024-cü ilə qədər davam edəcək.** Qurumun milli assosiasiyaların fəaliyyətlərini dəstəkləmək məqsədi ilə 2004-cü ildə başlatdığı "HatTrick" proqramının detalları bəlli olub. Avropa çempionatlarından əldə edilən gəlirlərin federasiyalara təqdim edildiyi proqramda beşinci 4 illik period başlayıb. UEFA 2020-2024-cü illər arasında 775.5 milyon avroluq fond yaradıb.

Avropa futbol təşkilatının üzv assosiasiyalara dəstəyi əvvəlki illərlə müqayisədə 27 faiz artıb. Qurum 2024-cü ildən 2,6 milyard avroluq fond ayırmağı planlaşdırır.

ELAN

**Bərdə rayon Qullar kənd sakini Süleymanov Səyyaf Yaqub oğlunun adına verilmiş JN :0079 kod 61023058 nömrəli Dövlət aktı itirildiyi üçün etibarsız sayılır.**